# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 noyabr 2026-cı il, çərşənbə axşamı № 214 (7281) Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan-Vyetnam:

## Strateji tərəfdaşlığa əsaslanan, milli maraqlara söykənən əməkdaşlıq...



Bax səh. 3




## Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TRIPP layihəsinin işə salınması münasibətilə ona ünvanladığı xoş sözlərə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edib.**

**Bu barədə Prezident İlham Əliyevin "X" hesabında paylaşım edilib.**

**Paylaşımda deyilir: "Hörmətli Prezident Donald Tramp, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin başlanması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm".**

## Azərbaycan-ABŞ əlaqələrinin tarixi əhəmiyyəti...

Bax səh. 3

## İslam dünyası üçün gözəl nümunə

Bax səh. 4




## "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik"




Bax səh. 4-5

## Azərbaycan-İtaliya münasibətləri...

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İtaliyanın Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani ilə görüşüb. Görüş zamanı nazirlər Azərbaycan-İtaliya münasibətlərinin geniş gündəliyini, strateji tərəfdaşlığın hazırkı vəziyyətini və perspektivlərini, eləcə də əsas regional və beynəlxalq məsələləri müzakirə ediblər.

Nazirlər 2014 və 2020-ci illərdə imzalanmış Strateji Tərəfdaşlıq sənədlərinə əsaslanan iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu vurğulayıblar. İqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirilib. 2025-ci ildə ikitərəfli ticarət dövriyyəsinin 12 milyard ABŞ dollarına çatması ilə İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qalır. Nazirlər ticarət, investisiya, enerji, sənaye...

Bax səh. 2

## Bakı-Roma: İqtisadi tərəfdaşlığın yeni gündəliyi

Bakıda Azərbaycan-İtaliya biznes-forumu keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, energetika, tikinti və daşınmaz əmlak, rəqəmsal texnologiyalar və süni intellekt, əczaçılıq, nəqliyyat və logistika, kənd təsərrüfatı və qida sənayesi, turizm, maliyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə fəaliyyət göstərən 250-dən çox şirkətin nümayəndəsi iştirak edib. Bu sayda geniş və ixtisaslaşmış sahibkarlıq subyektlərinin təmsil olunduğu nümayəndə heyətinin tədbirdə iştirakı Azərbaycan-İtaliya əlaqələrinin möhkəmləndirilməsinə olan xüsusi önəmi təsdiqləyir. Forum çərçivəsində tərəflər arasında iqtisadi əməkdaşlıq və investisiyaların yeni imkanları ətrafında fikir mübadiləsi aparılıb, birgə layihələrin icrası sahəsində anlaşmalar əldə olunub...

Bax səh. 2

## Rəqəmsal inkişafın tarixi nailiyyəti

Məlum olduğu kimi Azərbaycan BMT-nin Elektron Hökumətin İnkişafı İndeksi (E-Government Development Index - EGDI) üzrə 36 pillə irəliləyərək 194 ölkə arasında 38-ci yerə yüksəlib. Ölkəmizin EGDI göstəricisi 2024-cü ildəki 0,7607 baldan 2026-cı ildə 0,8847 bala yüksəlib. Bu, iki il ərzində 16,3 faiz artım deməkdir və nəticədə Azərbaycan "Çox Yüksək Elektron Hökumət İnkişafı" alt-indeksi V3 altqrupuna daxil olub. Bu altqrupda Kanada, Çin, Yaponiya, Avstriya, Türkiyə və Özbəkistan kimi ölkələr də təmsil olunur.

Azərbaycanın həmin indeks üzrə ən yüksək nəticə göstərdiyi istiqamət Onlayn Xidmətlər alt-indeksidir. Ölkəmiz bu göstərici üzrə 56 pillə irəliləyərək dünyada 11-ci yerə yüksəlib və Böyük Britaniya, İslandiya, ABŞ, Kanada və Norveç kimi inkişaf etmiş ölkələri qabaqlayıb. İndeksin xidmətlərin təqdim edilməsi...

Bax səh. 6

## "ING" proqnozunu yenilədi

Niderlandın ən böyük maliyyə-bank təsisatlarından olan "ING Group" region ölkələri ilə bağlı yenilənmiş inflyasiya proqnozunu açıqlayıb. Təşkilatın hesabatında Azərbaycanda 2026-cı il üzrə orta illik inflyasiyanın 4,8-5 faiz civarında olacağı proqnozlaşdırılır. "ING" qrupunun Qafqaz, Mərkəzi Asiya və Rusiya üzrə baş iqtisadçısı Dmitri Dolqin bildirib ki, Azərbaycanın hökumətinin iqtisadi bloku xarici inflyasiya təzyiqlərini neytrallaşdırmaq üçün nəzarət mexanizmini diqqətdə saxlamaqla, çox yaxşı sabitləşdirici nəticələr əldə etməyə nail olmaqdadır. Azərbaycan Qafqaz və Mərkəzi Asiyanın digər ölkələrinə nisbətən Aİ və ya Çin kimi ticarət tərəfdaşları ilə mübadilələrdə inflyasiya təsirlərinə daha çox məruz qalsa da, qiymət indeksinin müəyyən olunmuş hədəf çərçivəsində saxlanması mümkündür.

D.Dolqin növbəti ildə də...

Bax səh. 6



## Ukrayna müharibəsinin sonuna aparan yol

Bax səh. 7



## Şençjen görüşü: dünyanın yeni siyasi nizamı necə formalaşır?

Bax səh. 7

# Prezident İlham Əliyev İtaliya Nazirlər Şurası Sədrinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də İtaliya Respublikasının Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayanini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə bəyannaməyə toxunaraq, Azərbaycanla İtaliyanın yaxşı tərəfdaşlıq qurduqlarını, dostluğa əsaslanan əlaqələrimizin uğurla inkişaf etdiyini dedi.

Prezident İlham Əliyev bu il İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloninin ölkəmizə uğurlu səfərini xatırladaraq, səfər çərçivəsində onunla siyasi sahədə qarşılıqlı fəaliyyət, iqtisadiyyat, ticarət və ikitərəfli gündəlikdə duran digər məsələlərlə bağlı yaxşı müzakirələrin aparıldığını bildirdi.

Dövlətimizin başçısı İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə, özünün isə İtaliyaya səfərlərinə toxunaraq vurğuladı ki, bütün bunlar əlaqələrimizin inkişafına mühüm töhfə verir.

Yüksək səviyyədə olan əlaqələrimizin iqtisadi fəaliyyətimizə də müsbət təsir göstərdiyini deyən Azərbaycan Prezidenti bu sahədə əməkdaşlığımızın genişlənməsindən məmnunluğunu ifadə etdi, irimiqyaslı sərmayələrin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, İtaliya enerji sahəsində Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Dövlətimizin başçısı ölkəmizin İtaliyanın enerji bazarına daxil olduğunu, orada neft emalı müəssisələri və yanacaqdoldurma məntəqələri əldə etdiyini dedi.

Prezident İlham Əliyev Azərbaycanda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərən italyan şirkətlərinin sayının artmasını da məmnunluqla qeyd etdi.

Azərbaycan Prezidenti əlaqələrimizin, həmçinin təhsil sahəsini də əhatə etdiyini dedi, bu xüsusda ötən il İtaliya dövlətinin başçısının iştirakı ilə Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışını xatırladı.

Prezident İlham Əliyev Antonio Tayaninin səfərinin uğurlu olacağına və strateji münasibətlərimizi daha da gücləndirəcəyinə ümidvarlığını ifadə etdi.



İtaliya Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Azərbaycanda və İtaliyada fəaliyyət göstərən hər iki ölkədən olan şirkətlərin sayının artırılmasında maraqlı olduqlarını bildirdi.

Antonio Tayani Azərbaycanın İtaliya üçün regional sabitlik baxımından çox əhəmiyyətli ölkə olduğunu dedi, İtaliyanın Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO münasibətlərinin inkişafına töhfə verməyə hazır olduğunu qeyd etdi.

Qonaq bir müddət əvvəl İranda baş vermiş hadisələr zamanı İtaliyanın bu ölkədəki səfirliyinin Bakıda fəaliyyət göstərməsi üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı biznes sahəsində əməkdaşlığın potensialına toxunuldu, bu ilin oktyabrında Romada imzalanmış kritik xammal sahəsində strateji əməkdaşlığa dair Birgə Bəyannamənin önəmi qeyd edildi.

İqtisadi-ticari, enerji, müdafiə, kənd təsərrüfatı, sənaye, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycanın nəqliyyat bağlantıları baxımından strateji rolunun artdığı vurğulandı, bölgədə gedən proseslərə, o cümlədən Azərbaycan-Ermənistan normallaşma prosesinə və TRIPP layihəsinə toxunuldu.

# Azərbaycan-İtaliya münasibətləri...

## İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qalır

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İtaliyanın Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani ilə görüşüb. Görüş zamanı nazirlər Azərbaycan-İtaliya münasibətlərinin geniş gündəliyini, strateji tərəfdaşlığın hazırkı vəziyyətini və perspektivlərini, eləcə də əsas regional və beynəlxalq məsələləri müzakirə ediblər.

## Ticarət dövriyyəsi 12 milyard ABŞ dollarına çatıb

Nazirlər 2014 və 2020-ci illərdə imzalanmış Strateji Tərəfdaşlıq sənədlərinə əsaslanan iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu vurğulayıblar. İqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirilib. 2025-ci ildə ikitərəfli ticarət dövriyyəsinin 12 milyard ABŞ dollarına çatması ilə İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qalır. Nazirlər ticarət, investisiya, enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat və yüksək texnologiyalar sahələrində əməkdaşlığın daha da genişləndirilməsi imkanlarını müzakirə ediblər. Həmçinin Bakıda keçirilən Azərbaycan-İtaliya Biznes-Forumunun nəticələrini müsbət qiymətləndiriblər. Nazirlər Azərbaycanın İtaliya üçün etibarlı enerji təchizatçısı kimi rolunu, Cənub Qaz Dəhlizinin və Trans-Adriatik Boru Kəmərinin (TAP) strateji əhəmiyyətini, eləcə də SOCAR-ın İtaliyanın enerji bazarında genişlənən mövcudluğunu vurğulayıblar.

C.Bayramov İtaliya şirkətləri üçün Orta Dəhlizin inkişafı, nəqliyyat və logistika infrastrukturunun qurulması, eləcə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma və inkişaf layihələri çərçivəsində mövcud olan imkanları diqqətə çatdırıb. Kritik xammal sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi də vurğulanıb.

Nazirlər regiondakı proseslər, o cümlədən Azərbaycan və Ermənistan arasında normallaşma prosesi və Cənubi Qafqazda sülh gündəliyinin irəli aparılması istiqamətində səylər barədə fikir mübadiləsi aparıblar. C.Bayramov qarşı tərəfi işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin geri qayıdışı, eləcə də minaların yaratdığı çətinliklər barədə məlumatlandırıb.

Eyni zamanda, nazirlər təhsil, mədəniyyət, elm və turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini bir daha qeyd edərək, xalqlararası əlaqələrin möhkəmləndirilməsində İtaliya-Azərbaycan Universitetinin rolunu vurğulayıblar. Həmçinin, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




## C.Bayramov: Yeni layihədə ölkəmizə qarşı ərazi iddialarının olmaması müsbət haldır

Daha sonra mətbuat konfransı keçirilib. Ceyhun Bayramov bildirib ki, İtaliya ilə münasibətlərimiz çox möhkəm təməl üzərində qurulub, sürətlə, uğurla inkişaf edib. Gələn il ölkələrimiz arasında münasibətlər baxımından çox önəmli bir tarixdir. Belə ki, diplomatik münasibətlərin qurulmasının 35 illiyi qeyd ediləcək. "Bu müddət ərzində ölkələrimiz arasında çoxsaylı sənədlər imzalanıb və qəbul edilib. Onların sırasında xüsusilə 2014-cü ildə qəbul edilmiş Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni və 2020-ci ildə imzalanmış Çoxtərəfli Strateji Tərəfdaşlıq Bəyannaməsini qeyd etmək istərdim" - deyə, nazir vurğulayıb.

Onun sözlərinə görə, Azərbaycanla İtaliya arasında indiyədək 65 sənəd imzalanıb. C.Bayramov qeyd edib ki, müxtəlif istiqamətləri əhatə edən 20 sənəd isə hazırda Azərbaycan və İtaliya tərəflərinin baxışındadır. Həmçinin diqqətə çatdırılıb ki, beynəlxalq səviyyədə Azərbaycanın irəli sürdüyü səkkiz təşəbbüs İtaliya tərəfindən dəstəklənib. Nazir deyib ki, İtaliya minatəmizləmə sahəsində də ölkəmizə dəstək göstərib. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərimizdə tarixi-mədəni irsin bərpası və qorunması istiqamətində bir sıra İtaliya şirkətləri iştirak ediblər.

C.Bayramov, həmçinin Ermənistanın yeni konstitusiya layihəsinə də münasibət bildirib: "Ölkəmiz dəfələrlə bəyan edib ki, Ermənistan öz konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını aradan qaldırdıqdan sonra sülh sazişinin imzalanması mümkün olacaq. Bu gün Ermənistanda çox önəmli bir inkişaf baş verdi. Ermənistanın Baş naziri Konstitusiya mətnini ictimaiyyətə açıqladı. Azərbaycan üçün maraqlı olan məqam ondan ibarətdir ki, yeni konstitusiya layihəsində bu cür iddiaların yer almadığını müşahidə edirik. Bu, müsbət haldır, inkişafdır. Sözügedən məsələ öz yekun həllini tapdıqdan sonra sülh sazişinin imzalanması mümkün olacaq".

## A.Tayani: TAP layihəsi mühüm əməkdaşlıq nümunəsidir

İtaliyalı nazir Antonio Tayani isə bildirib ki, ölkələrimiz arasında imzalanmış sənədlər ikitərəfli münasibətlərin genişləndirilməsinə, siyasi və iqtisadi əməkdaşlığın daha da gücləndirilməsinə təkan verəcək: "Gələn ilin əvvəlində də qarşılıqlı görüşlərin keçirilməsi nəzərdə tutulur. Əminəm ki, bu görüşlər əməkdaşlığımızın daha da inkişafına xidmət edəcək". Onun sözlərinə görə, İtaliya və Azərbaycan bir-biri üçün dost ölkələrdir. Bizim ölkələrimiz sülhün bərqərar olmasına və beynəlxalq sabitliyin təmin edilməsinə çalışır. "Dünyada baş verən müharibə və münaqişələrin sülh yolu ilə həllinə töhfə verməliyik. Azərbaycan və Ermənistan arasında sülhün təmin olunması regionda sabitlik baxımından mühüm əhəmiyyət kəsb edir", - deyə italiyalı qeyd edib.

Antonio Tayani həmçinin qeyd edib ki, Azərbaycan qazının TAP layihəsi çərçivəsində Avropanın ölkələrinə çatdırılması enerji təhlükəsizliyinin təmin olunması baxımından mühüm əməkdaşlıq nümunəsidir. Onun sözlərinə görə, sualtı kabellərin çəkilməsi, dəmir yolu sahəsində iri layihələrin həyata keçirilməsi də əməkdaşlıq istiqamətlərindən biridir.

*Nardar BAYRAMLI*

# Bakı-Roma: İqtisadi tərəfdaşlığın yeni gündəliyi

Bakıda Azərbaycan-İtaliya biznes-forumu keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, energetika, tikinti və daşınmaz əmlak, rəqəmsal texnologiyalar və süni intellekt, əczaçılıq, nəqliyyat və logistika, kənd təsərrüfatı və qida sənayesi, turizm, maliyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə fəaliyyət göstərən 250-dən çox şirkətin nümayəndəsi iştirak edib. Bu sayda geniş və ixtisaslaşmış sahibkarlıq subyektlərinin təmsil olunduğu nümayəndə heyətinin tədbirdə iştirakı Azərbaycan-İtaliya əlaqələrinin möhkəmləndirilməsinə olan xüsusi önəmi təsdiqləyir. Forum çərçivəsində tərəflər arasında iqtisadi əməkdaşlıq və investisiyaların yeni imkanları ətrafında fikir mübadiləsi aparılıb, birgə layihələrin icrası sahəsində anlaşmalar əldə olunub.

## 12 milyard dollara yaxın ticarət dövriyyəsi

İqtisadiyyat nazirinin müavini Anar Axundov bildirib ki, cari il yanvarın 13-də Bakıda keçirilən Azərbaycan-İtaliya Hökumətlərarası Komissiyasının 6-cı iclası və Komissiyanın 70-dən çox təşəbbüsü əhatə edən 2026-2027-ci illər üzrə Fəaliyyət Planı iqtisadi tərəfdaşlığın daha da genişləndirilməsi üçün mühüm imkanlar yaradır. İki ölkə arasında iqtisadi-ticari münasibətlər davamlı olaraq dinamika nümayiş etdirir, İtaliya Azərbaycanın ən böyük ticarət tərəfdaşı və əsas ixrac bazarıdır. 2025-ci ildə ikitərəfli ticarət dövriyyəmizin həcmi 12 milyard dollara yaxın olub. 2026-cı ilin ötən doqquz ayında isə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 9 milyard dollardan çoxdur. Qeyri-neft ticarətinin genişlənməsi sahibkarlara Avropa bazarına çıxmağa, sənaye müəssisələrimizə isə istehsalı müasirləşdirməyə imkan verir. Azərbaycanda sənaye, tikinti, kənd təsərrüfatı, nəqliyyat, ticarət və xidmət sahələrində İtaliya sərmayəli 124 şirkət fəaliyyət göstərir. Azərbaycan İtaliya iqtisadiyyatına uzunmüddətli sərmayə yatırır.




Enerji sektoru ikitərəfli münasibətlərin əsas aparıcı xəttini təşkil edir. İtaliyanın aparıcı şirkətləri uzun illərdir ki, Azərbaycanın enerji bazarında fəal iştirak edir. Bu gün İtaliya Azərbaycanın Avropada ən iri enerji tərəfdaşlarından biridir və bu əməkdaşlıq bütövlükdə qitənin enerji təhlükəsizliyi üçün xüsusi əhəmiyyət daşıyır. İtaliya Sənaye Konfederasiyasının kiçik sənaye üzrə vitse-prezidenti Fausto Mazzali qeyd edib ki, TAP və mərkəzi enerji infrastrukturu eləcə də "Ansaldo" ilə "AzərEnerji" arasında əməkdaşlıq İtaliyanın sənaye potensialı ilə Azərbaycanın yerli tərəfdaşlarını bir araya gətirən uğurlu nümunələrdir. Hazırda İtaliyada istehlak olunan neftin təxminən 40 faizi Azərbaycan hesabına təmin edilir. Ümumilikdə, Azərbaycan İtaliyanın neft və qaz təchizatında ikinci yerdə dayanır. 2025-ci ildə Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına tədarük olunub. Yeri gəlmişkən, TAP layihəsinin genişləndirilməsi və Avropaya daha çox qaz nəqli planında da İtaliya fəal iştirak edir. Bu prosesin başa çatmasından sonra bu ölkənin Mərkəzi Avropa bazarında enerji ötürücülüyündə strateji körpü funksiyası daha da artacaq.

## İtaliyanın neft tələbatının 40 faizini ölkəmiz təmin edir

Fausto Mazzalinin sözlərinə görə, institusional əlaqələrin möhkəmləndirilməsi sahibkarlıq subyektlərinin bu prosesə daha fəal cəlb olunması ilə müşayiət edilməlidir. Əsas məqsəd yaranmış yaxınlığı yeni sənaye tərəfdaşlıqlarına, investisiyalara və konkret layihələrə çevirməkdir. Bu istiqamətdə İtaliya müəssisələrinin istifadəsində olan maliyyə və sığorta dəstəyi alətləri də mühüm rol oynayır. O, Azərbaycan və İtaliya arasında iqtisadi tərəfdaşlığın daha da genişləndirilməsi üçün kiçik və orta müəssisələrin də bu prosesə cəlb edilməsinin vacibliyini qeyd edib.

İtaliya İqtisadiyyatının Milli Təşviqi Təşkilatı "Cassa Depositi Prestiti SpA"nın beynəlxalq bazarların inkişafı üzrə rəhbəri Laurent Franciosi isə bildirib ki, ticarət əlaqələrinin genişləndirilməsi ilə yanaşı, məhsuldar investisiyaların artırılması, texnologiya transferi və müəssisələr arasında əməkdaşlığın inkişafı üçün böyük potensial mövcuddur və bu amillər nəzərə alınacaq. Bu prosesdə CDP mühüm rol oynaya bilər. Sənaye və maliyyə sahələrində Azərbaycan İnvestisiya Holdinqi və onun törəmə qurumları, o cümlədən SOCAR kimi iri şirkətlərlə dialoq yeni ixrac və əməkdaşlıq imkanlarını daha da artırcaq.

İtaliya regional bağlantıların inkişafına, xüsusilə Orta Dəhliz infrastrukturu, Qara dəniz və Xəzər dənizi arasında enerji əlaqələrinin genişləndirilməsinə də böyük maraq göstərir, bu istiqamətlərdə əməkdaşlıq imkanları nəzərdən keçirilir.

## İtaliya şirkətləri yeni layihələrə böyük maraq göstərir

Azərbaycan Biznesinin İnkişafı Fondunun İdarə Heyətinin sədri Ülvi Mansurov iki ölkənin biznes qurumları arasında faydalı əməkdaşlığını qurulduğunu diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan ilə İtaliya arasında əməkdaşlığın genişləndirilməsi və İtaliya şirkətlərinin ölkəmizdəki layihələrdə iştirakı üçün böyük potensial var. Birgə müəssisələrin yaradılması, istehsal müəssisələrinin qurulması, qabaqcıl texnologiyaların tətbiqi nəzərdə tutan innovativ və perspektivli təşəbbüsləri yeni gündəliyə daxildir. İtaliyanın SACE və CDP ilə əməkdaşlıq çərçivəsində iki ölkənin biznes dairələrinin təşəbbüslərinə hökumət səviyyəsində dəstəyin göstərilməsi nəzərdə tutulur ki, bu da İtaliya şirkətlərinin Azərbaycana investisiya yatırmaq marağını artıracaq.

Biznes-forum çərçivəsində Azərbaycan və İtaliyanın müvafiq qurumları və şirkətləri arasında 9 sənəd imzalanıb. Bu sənədlər Azərbaycan-İtaliya iqtisadi münasibətlərinin diversifikasiyasını gücləndirməklə, əsaslı layihələrlə, o cümlədən qeyri neft-qaz sahəsində prioritet istiqamətlərlə genişlənəcəyinə dərin zəmin yaradır.

*E.CƏFƏRLİ*

# Azərbaycan-Vyetnam:
## Strateji tərəfdaşlığa əsaslanan, milli maraqlara söykənən əməkdaşlıq...









Son illər Cənubi Qafqazın inkişaf trayektoriyası beynəlxalq aləmin diqqətindədir. Azərbaycanın bölgədə formalaşdırdığı yeni reallıqlar və bu reallıqların nəticə etibarı ilə yeni nizama verdiyi töhfələr təqdir edilir. Təsadüfi deyil ki, dünyanın aparıcı siyasi-iqtisadi mərkəzləri, dövlətləri və təşkilatları Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını həm əyani surətdə bildirirlər, həm də apardıqları siyasətlə nümayiş etdirirlər. Azərbaycan isə regional təhlükəsizliyə verdiyi töhfələrlə gələcək iqtisadi-siyasi nizamın dayaqlarını daha da möhkəmləndirir. Şərq-Qərb tranziti üzrə ən mühüm logistik mərkəz olaraq Azərbaycan qlobal ticarətin inkişafına, siyasi inteqrasiyanın keyfiyyətinə xüsusi rəng qatır. Nəticə etibarı ilə, Avrasiyanın yeni iqtisadi nizamının formalaşmasında oynadığımız rol həm iqtisadi, həm də siyasi körpü kimi qlobal əlaqələrin güclənməsinə töhfə verir. Bakı bu gun Avropanı Uzaq Şərqə qovuşduran yolun inkişafına töhfə verir. Bu isə həmin regionlardakı ölkələrin iqtisadi inkişafı üçün mühüm perspektivlər yaradır.

**To Lam: Mükəmməl rəhbərliyinizlə Azərbaycanın əldə etdiyi mühüm nailiyyətlər münasibətilə Sizi təbrik etmək istərdim**

Vurğulandığı kimi, Azərbaycan həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafında maraqlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnama son səfəri zamanı diqqət mərkəzində olan məsələlər, müzakirə mövzuları bir daha Azərbaycanın apardığı siyasətin çoxşaxəli olduğunu təsdiqləyir. Bakı bu gün qitələrarası əlaqələrin möhkəmlənməsində əsaslı rol oynayır və bu, Vyetnamın timsalında ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Noyabrın 21-də Hanoyda Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Prezidenti To Lam ilə geniş tərkibdə görüşü zamanı Vyetnam dövlət başçısı bildirib ki, biz Azərbaycandakı vəziyyəti hər zaman yaxından izləmişik: "Mükəmməl rəhbərliyinizlə Azərbaycanın əldə etdiyi mühüm nailiyyətlər münasibətilə Sizi təbrik etmək istərdim. Son illərdə Azərbaycanın ümumi daxili məhsulu artmaqda davam edir. Əhalinin həyat səviyyəsi daim yaxşılaşır və Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi davamlı olaraq güclənib. Biz Azərbaycanı regionda daimi olaraq mühüm strateji tərəfdaş kimi qəbul etmişik".

**Strateji tərəfdaşlıq münasibətlərdə yeni mərhələ yaradır**

7 may 2025-ci ildə Vyetnamla strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul edilməsi xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev və Vyetnam Kommunist Partiyasının Baş katibi To Lamın iştirakı ilə əldə olunan razılaşma iki ölkə münasibətlərini keyfiyyətcə yeni mərhələyə yüksəldib. Sənədin əhəmiyyəti yalnız siyasi dialoqun dərinləşdirilməsi ilə məhdudlaşmır. Energetika, neft-qaz sənayesi, müdafiə, rəqəmsal texnologiyalar, innovasiya, nəqliyyat və ticarət sahələrində əməkdaşlıq üçün geniş imkanlar açılır. Xüsusilə SOCAR ilə Vyetnamın PetroVietnam şirkəti arasında əməkdaşlıq enerji sahəsində qarşılıqlı maraqların reallaşdırılması baxımından perspektivlidir. Azərbaycanın regionlararası nəqliyyat-logistika imkanları Vyetnam şirkətləri üçün Avropa və Mərkəzi Asiya bazarlarına çıxışda əlavə üstünlüklər yarada bilər. Eyni zamanda Vyetnam Azərbaycanın Cənub-Şərqi Asiyada iqtisadi və siyasi əlaqələrini genişləndirməsi üçün mühüm tərəfdaşdır. Bu əməkdaşlıq Azərbaycanın çoxşaxəli xarici siyasətinin coğrafi miqyasını genişləndirməklə yanaşı, milli maraqlara əsaslanan yeni iqtisadi tərəfdaşlıq imkanları formalaşdırır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi naharda çıxış edən Prezident İlham Əliyev də strateji tərəfdaşlığın əhəmiyyətinə toxunub. Dövlət başçısı bildirib ki, Vyetnam bizim üçün dost ölkə və strateji tərəfdaşdır: "Keçən il hörmətli Prezident cənab To Lamın ölkəmizə dövlət səfəri zamanı qəbul edilən "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" ikitərəfli əlaqələrimizi keyfiyyətcə yeni pilləyə qaldırdı".

Geniş tərkibdə görüşdə çıxış edən Vyetnam Prezidenti To Lam bildirib ki, 2025-ci ilin mayında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi ikitərəfli əlaqələrimizdə yeni səhifə açan tarixi mərhələdir: "Hər iki ölkə qarşısında bütün səviyyələrdə və bütün sahələrdə duran mühüm vəzifə əməkdaşlığımızın məzmununu şaxələndirərək, onu konkret proqramlara, layihələrə və nailiyyətlərə çevirərək xalqlarımıza əhəmiyyətli faydalar qazandırmaqdır".

**Beynəlxalq platformalarda qarşılıqlı dəstək**

Hər iki ölkə bir sıra beynəlxalq platformalarda da bir-birini dəstəkləyir. Bakı-Hanoy münasibətlərində qarşılıqlı dəstək xüsusi rol oynayır Azərbaycan Prezidenti İlham Əliyev geniş tərkibdə görüşdə çıxış edərək bildirib ki, əməkdaşlığımız bir çox sahələri əhatə edir və biz beynəlxalq aləmdə güclü qarşılıqlı əlaqəyə malik olduğumuz üçün çox şadıq: "AQEM Zirvə Görüşündə yüksəksəviyyəli iştirakınız üçün Sizə minnətdarıq".

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizin inkişafında roluna toxunulub, yeni əməkdaşlıq mexanizmlərinin müəyyənləşdirilməsi baxımından bu səfərlərin rolu vurğulanıb. Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, AQEM və digər təsisatlar çərçivəsində əməkdaşlığından, həmçinin Azərbaycanla ASEAN arasında əlaqələrin inkişaf etdirilməsi məsələlərindən bəhs olunub. Vyetnamın Xəzər regionu və Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığının qurulmasında Azərbaycanın rolunun və dəstəyinin önəmi qeyd edilib.

**İqtisadi əməkdaşlıq və enerji tərəfdaşlığı yeni investisiya perspektivləri yaradır**

Azərbaycan-Vyetnam strateji tərəfdaşlığının mühüm istiqamətlərindən birini iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, enerji təhlükəsizliyi və qarşılıqlı investisiyaların təşviqi təşkil edir. Hər iki ölkənin iqtisadi potensialı və mövcud imkanları bu əməkdaşlığın çoxşaxəli inkişafı üçün əlverişli zəmin yaradır. Xüsusilə neft-qaz sektorunda SOCAR və Vyetnamın PetroVietnam şirkəti arasında əməkdaşlığın dərinləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, 2023-cü ildən etibarən Azərbaycandan Vyetnama neft tədarükü artıb. Tərəflər neft-qaz yataqlarının kəşfiyyatı və işlənməsi, hasilat, emal, neft-kimya sənayesi, texniki xidmətlər, eləcə də mayeləşdirilmiş təbii qazın (LNG) tədarükü imkanlarını nəzərdən keçirirlər. Bütün bunlar Vyetnamın enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, Azərbaycanın enerji ixracı coğrafiyasının genişlənməsinə xidmət edir. Digər mühüm istiqamət nəqliyyat-logistika əlaqələridir. Azərbaycanın Orta Dəhliz və Şimal-Cənub marşrutları üzərindəki mövqeyi Vyetnam yüklərinin Avropa və digər bazarlara daşınması üçün yeni imkanlar açır. 2026-cı ilin ilk doqquz ayında Vyetnamla bağlı tranzit daşımalarının bir neçə dəfə artması bu potensialın reallaşdığını göstərir. Eyni zamanda, ROX Group ilə birgə həyata keçirilən enerji layihələri, qarşılıqlı investisiyaların təşviqi və qeyri-neft ticarətinin genişləndirilməsi əməkdaşlığın yeni iqtisadi məzmununu formalaşdırır.

Qeyd edək ki, geniş tərkibdə görüşdə də enerji sahəsində, o cümlədən neft-qaz və enerji təhlükəsizliyi, birgə həyata keçirilən enerji, iqtisadiyyat, investisiyalar, turizm, təhlükəsizlik, müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq, parlamentlərarası münasibətlər, nəqliyyat-logistika, aviasiya və mədəniyyət əlaqələri ilə bağlı məsələlər müzakirə olunub. Azərbaycanın birgə həyata keçirilən enerji, o cümlədən külək və Günəş enerjisi sahələrində böyük potensialının olduğu bildirildi. Həmçinin infrastruktur layihələri, o cümlədən Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, Trans-Xəzər marşrutunun əhəmiyyəti vurğulandı. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Neft və Qaz Şirkəti (PetroVietnam) arasında əlaqələrin dərinləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

***P.İSMAYILOV***

# Azərbaycan-ABŞ əlaqələrinin tarixi əhəmiyyəti...

## Zəngəzur dəhlizinin (TRİPP) tam şəkildə işə düşməsi Azərbaycanla Ermənistan, eyni zamanda, regionlar arasında bağlantıların və iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcək



Azərbaycan dövlətinin yürütdüyü praqmatik, əməkdaşlığa istinad edən, xüsusilə bərabərhüquqlu şəkildə qarşılıqlı maraqların qorunmasını özündə birləşdirən siyasət ölkəmizi qlobal dünyada etibarlı tərəfdaş kimi xarakterizə edir. Bakı bölgədə formalaşan reallıqlar əsasında vacib və müasir çağırışlara əsaslanan konfiqurasiya yaradır, yeni siyasi-iqtisadi nizama töhfə verir. Bu isə, əməkdaşlıqda maraqlı olan dövlətlər üçün əlaqələrin daha da güclənməsi perspektivini ön plana çəkir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu geniş diapazonlu fəaliyyəti dünyanın aparıcı dövlətləri tərəfindən də təqdir olunur. Rəsmi Bakı ilə strateji təmasların gücləndirilməsi istiqamətində atılan addımlar bunu təsdiqləyir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu məsələ güc mərkəzlərinin də gündəliklərində ən aktual prioritet kimi göstərilir. Bu mənada, Azərbaycan ilə ABŞ arasındakı münasibətlər xüsusilə diqqəti cəlb edir.

Son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri bu mənada, xüsusi vurğulanmalıdır. Ötən ilin avqustunda Vaşinqtonda keçirilən görüşlər, bu ilin fevralında Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması münasibətləri yeni bi mərhələyə daşıyır. ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının perspektivləri aydın və çoxşaxəlidir - rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir. Bu isə ABŞ-ın Azərbaycanın yaxın tərəfdaşı olması həqiqətini növbəti dəfə nümayiş etdirməklə yanaşı, əlaqələri daha da möhkəmləndirməkdə maraqlı olduğunu sübut edir. Bunu ölkəmizə səfər edən ABŞ rəsmiləri də təsdiqləyirlər.

## ABŞ-ın daxili təhlükəsizlik naziri Azərbaycan Prezidentinin qəbulunda...

Qeyd edək ki, noyabrın 22-də Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın daxili təhlükəsizlik naziri Markveyn Mullini qəbul edib. Prezident İlham Əliyev bu ilin yanvarında Markveyn Mullinin ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü, Oklahomadan respublikaçı senator kimi ölkəmizə səfərini və onunla görüşünü məmnunluqla xatırladı, yeni vəzifəsi ilə bağlı qonağı təbrik edib.

Dövlətimizin başçısı 2026-cı ilin Azərbaycan-ABŞ əlaqələri üçün tarixi əhəmiyyət kəsb etdiyini deyib. Prezident İlham Əliyev bu xüsusda ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri və bu çərçivədə "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının münasibətlərimizin genişlənməsinə mühüm töhfə verdiyini qeyd edib.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin ən yüksək səviyyəyə qalxmasında və regionda sülhün təmin edilməsində Prezident Donald Trampın səylərini yüksək qiymətləndirib, ölkəmizin də ABŞ ilə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu deyib.

2025-ci ilin avqustunda keçirilən Vaşinqton Sammitini xatırladan Prezident İlham Əliyev artıq regionda yeni vəziyyətin yarandığını, bir ildən çox müddətdir ki, sülh şəraitində yaşadığımızı bildirib.

ABŞ-ın daxili təhlükəsizlik naziri Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı və bu xüsusda Prezident Donald Trampın rolunu qeyd edib.

Markveyn Mullin TRIPP layihəsinin əhəmiyyətinə toxunaraq, bu dəhlizin tam şəkildə işə düşməsinin Azərbaycanla Ermənistan, eyni zamanda, regionlar arasında bağlantıların və iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyini vurğulayıb.

Söhbət zamanı Azərbaycan-ABŞ əlaqələrinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əməkdaşlıq imkanlarını müzakirə etmək üçün yaxşı fürsət yaratdığı qeyd olunub.

## Tərəfdaşlıq mühüm təməllərə söykənir

Qeyd olunmalıdır ki, ikitərəfli münasibətlərdə qarşılıqlı maraqlar prinsipi əsas götürülür və enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat marşrutları, terrorizmlə mübarizə, regional sabitlik və iqtisadi əməkdaşlıq kimi amillər dialoqu daha da dərinləşdirir. Xəzər hövzəsinin enerji resurslarının dünya bazarlarına təhlükəsiz çatdırılmasında Azərbaycanın oynadığı rol, Orta Dəhlizin artan əhəmiyyəti, eləcə də Cənubi Qafqazda formalaşan yeni təhlükəsizlik arxitekturası Vaşinqtonun Bakı ilə əməkdaşlığı strateji prizmadan qiymətləndirməsinə yol açır. Bu yeni mərhələnin ən mühüm siyasi ifadəsi isə 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli sammit olub. ABŞ Prezidenti Donald Trampın ev sahibliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən görüş təkcə Azərbaycan - Ermənistan münasibətlərində deyil, həm də Bakı - Vaşinqton əlaqələrinin tarixində yeni səhifə açıb. Sammit göstərdi ki, ABŞ artıq Azərbaycanı yalnız regionun aparıcı dövləti kimi deyil, həm də Avrasiya məkanında sülhün, enerji təhlükəsizliyinin və nəqliyyat-kommunikasiya layihələrinin əsas tərəfdaşlarından biri kimi qiymətləndirir. Məhz buna görə də Vaşinqton sammiti iki ölkə arasında münasibətləri ənənəvi əməkdaşlıq formatından çıxararaq daha yaxın strateji tərəfdaşlıq müstəvisinə yüksəldən mühüm siyasi dönüş nöqtəsi kimi tarixə düşüb.

Bu ilin fevralında imzalanan Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya isə ikitərəfli münasibətlərə yeni bir status qazandırdı. Bu sənədin imzalanması iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə ən yeni mərhələsinin başlanğıcına çevrildi. Qeyd edək ki, Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və yeni əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir.

## Zəngəzur dəhlizi (TRİPP) ideyası Bakının qlobal dünyaya töhfəsidir

Zəngəzur dəhlizinin (TRİPP) yaradılması ideyası Azərbaycan dövləti tərəfindən irəli sürülüb. Məhz Prezident İlham Əliyevin iradəsi ilə Azərbaycanın əsas hissəsi ilə blokadada qalan Naxçıvan arasında kommunikasiya əlaqələrinin bərpa edilməsi istiqamətində mühüm addımlar atılıb. Bu dəhlizin yaradılması Azərbaycanın milli və strateji maraqları çərçivəsindədir. Eyni zamanda, dəhlizin fəaliyyətə başlaması ilə regionun tranzit imkanları daha da genişlənəcək. Zəngəzur dəhlizinin (TRİPP) yaradılmasında region dövlətləri ilə Azərbaycanın maraqları üst-üstə düşür. Xüsusilə, Orta Dəhlizin yeni seqmenti kimi Zəngəzur dəhlizi (TRİPP) həm rentabelliyinə, həm də effektivliyinə görə mühüm əhəmiyyət daşıyır. Ötən ilin avqustunda Vaşinqtonda reallaşan razılaşma isə bu layihənin qlobal siyasi təsdiqinə çevrildi.

Zəngəzur dəhlizinin reallaşması birinci növbədə mühüm geocoğrafi situasiya yaradacaq. Yeni iqtisadi nizamda Şərq-Qərb tranzitini birləşdirəcək dəhliz digər region ölkələri üçün də mühüm əhəmiyyət kəsb edir. Çünki dəhlizin Şimal-Cənub xətti ilə perpendikulyar şəkildə kəsişməsi ikinci xətt üzərində olan dövlətlərin də maraq dairəsini buraya istiqamətləndirir. Başqa sözlə, Zəngəzur dəhlizi qlobal iqtisadi maraqlara cavab verən amil kimi çıxış edir. Vurğulandığı kimi, Zəngəzur dəhlizi ümumən regionun inkişaf dinamikasını artırma imkanına malikdir. Dəhliz Şərq-Qərb marşurutu üzərində ən qısa yoldur. Təbii ki, istər yükdaşımalarında, istərsə də digər ticarət mübadilələrində ən qısa yolun seçilməsi iqtisadi baxımdan da böyük mənfəət vəd edir. Bu dəhlizin reallaşmasına verdiyi dəstək isə ABŞ-ın Azərbaycanla tərəfdaşlığa verdiyi dəyərin növbəti sübutudur.

***P.İSMAYILOV***

# İslam dünyası üçün gözəl nümunə

## Mehriban xanım Əliyeva 2006-cı il noyabrın 24-də ICESCO-nun xoşməramlı səfiri seçilib

Tarixin bu günündə - 2006-cı il noyabrın 24-də Azərbaycanın Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva İslam ölkələrinin təhsil, elm və mədəniyyət təşkilatı olan ICESCO-nun xoşməramlı səfiri seçilib. Mehriban xanım Əliyeva bu yüksək ada layiq görülən ilk qadın ictimai-siyasi xadimdir. O, ICESCO-nun xoşməramlı səfirləri proqramı çərçivəsində fəaliyyətini böyük uğurla davam etdirir.



### Keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksələn qarşılıqlı münasibətlər

Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu ilə ICESCO arasında müxtəlif istiqamətləri əhatə edən sıx əməkdaşlıq əlaqələri qurulub. Mehriban xanım Əliyeva təşkilatın xoşməramlı səfiri adına müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun genişləndirilməsi sahəsindəki fəaliyyətinə, təhsilin, elmin və mədəniyyətin inkişafına verdiyi davamlı töhfələrə və əlbəttə ki, sərhəd tanımayan xeyriyyəçilik fəaliyyətinə görə layiq görülüb.

Azərbaycan 1991-ci ildən sıralarında 50-dən çox dövləti birləşdirən ICESCO-nun üzvüdür. Bu münasibətlər Mehriban Əliyevanın 24 noyabr 2006-cı il tarixində ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəlib.

Bunun nəticəsidir ki, indiyədək təşkilatın bir sıra mühüm tədbirləri məhz Bakıda keçirilib. Bu sırada "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfransı (1-2 noyabr 2007-ci il), Heydər Əliyev Fondunun təşəbbüsü, UNESCO və ICESCO-nun dəstəyi ilə baş tutan "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forumu (10-11 iyun 2008-ci il), İslam ölkələrinin mədəniyyət və təhsil nazirlərinin konfranslarını, Dünya dini liderlərinin Bakı Sammitini (26-27 aprel 2010-cu il), Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarını və digərlərini xüsusilə qeyd edə bilərik. ICESCO üzrə Azərbaycan Milli Komissiyasının fəaliyyəti özünün geniş spektiri ilə fərqlənir. Hər bir azərbaycanlı üçün çox əziz şəhər olan Şuşa 2024-cü ildə zəngin İslam mədəniyyətinin qovuşduğu bir məkan kimi diqqət mərkəzində olub. 2023-cü il sentyabrın 25-i və 26-da Qətər dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhərinin 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" proqramı üzrə namizədliyi irəli sürülüb. Konfrans iştirakçılarının yekdil qərarı ilə Qarabağımızın incisi Şuşa şəhəri bu şərəfli ada layiq görülüb. 2024-cü ilin may ayında şəhərin Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin iştirakı tədbiri xüsusilə rövnəqləndirib. Festivalın iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alıblar.

### İslam dünyasının yüksək mükafatı

Heydər Əliyev Fondu ilə İCESCO arasında genişlənən münasibətlər bütün İslam dünyası üçün gözəl nümunədir. Fondun xoş mərama, humanizm, həmrəylik prinsiplərinə əsaslanan fəaliyyəti İslam dünyasında böyük rəğbətlə qarşılanır. Ötən il Heydər Əliyev Fondunun adının "Həmdan-ICESCO" mükafatının qalibləri sırasında yer alması son dərəcə qürurvericidir.

Bəhs olunan mükafat İslam dünyası ölkələrində tədris müəssisələrinin inkişafına və təhsil mühitinin dəstəklənməsi təşəbbüslərinə töhfələrə görə təqdim edilir. Yeddi ölkədən doqquz təhsil təşəbbüsü birincilik uğrunda mübarizə aparıb. Heydər Əliyev Fondunun qeyd olunan istiqamətlərdə fəaliyyəti həqiqətən çox geniş əhatə dairəsinə malikdir. Təşəbbüslər isə bir qayda olaraq Fondun prezidenti Mehriban xanım Əliyevadan gəlir. Onun təşəbbüsü ilə 2005-ci ildən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla icra olunur.

Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi də özünün humanist mahiyyəti ilə diqqəti çəkir. Layihə çərçivəsində həm ölkə daxilində, həm də Azərbaycanın hüdudlarından kənarda, o cümlədən də Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Niderlandda bir sıra məktəblər yenidən qurulub.

***Mübariz ABDULLAYEV***

# "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik"







Noyabrın 21-də Gəncə şəhərində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 34-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik" mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün biz müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin yaradıcısı olduğu və Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilərək ölkəmizin inkişafında müstəsna rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılmasının 34-cü ildönümü münasibətilə qədim Azərbaycan yurdu, tarixi irsimizi və zəngin dövlətçilik ənənələrimizi yaşadan mühüm mədəniyyət mərkəzlərindən biri Gəncə şəhərində bir araya gəlmişik: "Hazırda dünyada müstəqil, nüfuzlu, qüdrətli və qalib ölkə kimi tanınan müasir Azərbaycanın möhtəşəm uğurlarında siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyasının mühüm rolu və xüsusi payı vardır. Partiyamızın keçdiyi 34 illik şərəfli yol Azərbaycanın müstəqillik tarixinin, dövlət quruculuğunun və milli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir. Danılmaz həqiqətdir ki, XX əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini yenicə bərpa etmiş ölkəmizin gələcək taleyini müəyyən edən əlamətdar hadisələrdən biri Yeni Azərbaycan Partiyasının yaradılması olmuşdur. Bu, sadəcə olaraq, bir partiyanın təsis olunması deyil, çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizdə yeni mərhələnin başlanğıcı və taleyüklü dönüş nöqtəsidir. Hər birimizə məlumdur ki, Yeni Azərbaycan Partiyasının yarandığı şərait olduqca mürəkkəb dövrə təsadüf edirdi. Həmin dönəmdə istər SSRİ miqyasında, istərsə də respublika səviyyəsində dağıdıcı proseslər baş verirdi. Sovet İttifaqının çöküşü fonunda Azərbaycan olduqca çətin vəziyyətlə qarşılaşmışdı. Respublikada faktiki olaraq ictimai-siyasi böhran mövcud idi, iqtisadi tənəzzül, siyasi xaos və vətəndaş qarşıdurması ilə yanaşı, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və ölkəmizin bölgədə təcrid vəziyyətinə düşməsi ciddi təhdidlər, o cümlədən müstəqilliyin itirilməsi təhlükəsi yaratmışdı. Belə bir şəraitdə Azərbaycanın tələtümlərdən xilas edilməsi üçün milli birliyin təmin edilməsi zərurətə çevrilmişdi. Bunun üçün isə təcrübəli, vətənpərvər və milli maraqları hər şeydən üstün tutan güclü siyasi liderə ehtiyac var idi. Bu tarixi missiyanı həyata keçirməyə qadir şəxsiyyət isə, heç şübhəsiz, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Xalq yalnız Onun liderliyi ilə Azərbaycanın müstəqilliyinin qorunub saxlanıla və gələcəyinin qurula biləcəyinə inanırdı. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının Heydər Əliyevə müraciət edərək müstəqil Azərbaycan uğrunda Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi də məhz bu inamdan qaynaqlanırdı. Ulu Öndərin həmin müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının yaradılmasına və partiyaya rəhbərlik etməyə razılıq verməsi isə taleyi sual altında olan Azərbaycanın gələcəyi naminə müstəsna əhəmiyyətə malik qərar olmuşdur. 1992-ci il noyabrın 21-də yaradılan Yeni Azərbaycan Partiyasının cəmiyyət tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması isə Heydər Əliyevin üstün liderlik və fenomenal idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. Qısa müddət ərzində respublikanın bütün bölgələrində yerli təşkilatların yaradılması istiqamətində mühüm addımlar atılmış, müəyyən olunmuş vəzifələri yerinə yetirmək və qarşıda duran hədəflərə çatmaq üçün sistemli fəaliyyət həyata keçirilmişdir".

YAP Sədrinin müavini vurğulayıb ki, yeni dəyərlər yaradaraq siyasi mədəniyyət nümunəsi ortaya qoyan Yeni Azərbaycan Partiyasına göstərilən yüksək etimad onun ümumxalq partiyasına çevrilməsini şərtləndirmişdir: "YAP bütün seçkilərdə inamlı qələbələr qazanaraq siyasi həyatda avanqard qüvvə - lider partiya olduğunu sübuta yetirmiş, hər bir mübarizədən daha da güclü çıxaraq siyasi sistemdə aparıcı mövqeyini daha da möhkəmləndirmişdir. Yeni Azərbaycan Partiyası 1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi və xalqın dəstəyi ilə sabitliyin, iqtisadi inkişafın təmin olunması, ictimai-siyasi institutların möhkəmləndirilməsi, respublikanın beynəlxalq mövqeyinin gücləndirilməsi və digər istiqamətlərdə ardıcıl işlər görməklə mühüm nailiyyətlərə imza atmışdır".

Tahir Budaqov bildirib ki, Ulu Öndər Heydər Əliyev siyasi varisliyi təmin etməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərmişdir: "Cənab İlham Əliyevin 2003-cü ildə ölkə Prezidenti, 2005-ci ildə isə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi istər partiyamızın həyatında, istərsə də bütövlükdə ölkəmizin inkişafında keyfiyyətcə yeni mərhələyə start vermişdir. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilərək dünyada etibarlı tərəfdaş kimi tanınmışdır. Və nəhayət, ölkəmiz öz ərazi bütövlüyünü və mütləq suverenliyini təmin etməklə Zəfər zirvəsinə yüksəlmiş, regionumuz üçün yeni perspektivlər yaranmışdır. Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, Böyük Qayıdış prosesi uğurla davam etdirilir. İşğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin yenidən qurulması, soydaşlarımızın doğma yurdlarına qayıdışı Azərbaycanın iqtisadi gücünü, siyasi iradəsini və gələcəyə inamını aydın şəkildə nümayiş etdirir. Eyni zamanda, ölkəmizin təşəbbüsü ilə başlanan sülh quruculuğu prosesi beynəlxalq hüquq normalarına, eləcə də dövlətlərin ərazi bütövlüyünün qorunması və sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslanır ki, bu da yalnız Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına deyil, bütövlükdə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq şəraitində Cənubi Qafqazın sabit, təhlükəsiz və firavan gələcəyinə xidmət edir".

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, müasir beynəlxalq münasibətlər sistemində sürətli transformasiya prosesi müşahidə olunur: "Qlobal informasiya məkanında baş verən dəyişikliklər fonunda rəqəmsal texnologiyaların, o cümlədən süni intellektin həyatımıza təsiri genişlənir, sosial şəbəkələrin ictimai rəyin formalaşmasında rolu getdikcə artır.

**davamı 5-ci səhifədə**









# “Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik”









**əvvəli 4-cü səhifədə**

Bütün bu reallıqlar müstəqil siyasət həyata keçirən dövlətlərin, o cümlədən Azərbaycanın qarşısında yeni vəzifələr müəyyən edir. YAP-ın VIII Qurultayında partiyamızın fəaliyyətinə yüksək qiymət verməklə qarşımızda duran başlıca vəzifələri və gələcəyə yönəlik strateji hədəfləri də dəqiq müəyyən edən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev dövlət siyasətinin mühüm prioritetlərindən biri olan ideoloji işin yeni reallıqlara və müasir çağırışlara uyğun təkmilləşdirilməsi zəruriliyini xüsusi vurğulamışdır. Bu kontekstdə Heydər Əliyev ideyalarının və azərbaycançılıq məfkurəsinin təbliği, Prezident İlham Əliyevin siyasətinin mahiyyəti və nəticələrinin geniş ictimaiyyətə çatdırılması, tarixi yaddaşın, milli-mənəvi dəyərlərimizin yaşadılması və gənc nəslin vətənpərvərlik ruhunda formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün müasir kommunikasiya vasitələrinin və rəqəmsal texnologiyaların imkanlarından geniş istifadə etməklə cəmiyyətin müntəzəm və obyektiv məlumatlandırılması, Azərbaycan həqiqətlərinin beynəlxalq miqyasda təbliğinin gücləndirilməsi, informasiya manipulyasiyalarına və dezinformasiya kampaniyalarına qarşı sistemli mübarizənin davam etdirilməsi xüsusi diqqət mərkəzində olmalıdır”.

“Hazırda sıralarında 800 minə yaxın vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyasının əksər üzvləri Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirərək Azərbaycanın daha da güclənməsi naminə məqsədyönlü fəaliyyət göstərirlər. 1993-cü il iyulun 23-də yaradılan YAP Gəncə şəhər təşkilatının sıralarında hazırda 40 mindən artıq üzv birləşmişdir ki, onlardan 26 mindən çoxu qadınlar, 8 mindən çoxu isə gənclərdir. Bu böyük potensial şəhər təşkilatının qarşısında duran bütün vəzifələrin mütəşəkkil qaydada və yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir. YAP Gəncə şəhər təşkilatı bundan sonra da fəaliyyətini müasir dövrün tələbləri və çağırışları əsasında davam etdirərək dövlətçilik ənənələrinin və milli-mənəvi dəyərlərin qorunması, ideoloji işin gücləndirilməsi, ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi, partiya sıralarının genişləndirilməsi və digər istiqamətlərdə öz üzərinə düşən öhdəlikləri yerinə yetirməli, ölkəmizdə sabitlik və həmrəyliyin qorunmasına, xalq-iqtidar birliyinin daha da möhkəmlənməsinə öz töhfəsini verməlidir. Partiyamızın yaradılmasının 34-cü ildönümü münasibətilə hər birinizi ürəkdən təbrik edir, möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram. Yaşasın Ulu Öndərimizin xalqımıza əmanət etdiyi müasir müstəqil Azərbaycan dövləti və Heydər Əliyev dühasının siyasi mirası olan Yeni Azərbaycan Partiyası! Vətənimizi, xalqımızı Zəfər zirvəsinə yüksəldən Müzəffər Liderimiz cənab İlham Əliyevə eşq olsun!”, - deyə Tahir Budaqov əlavə edib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin mürəkkəb siyasi və iqtisadi vəziyyətlə üzləşdiyi bir dövrdə yaradılıb: “1992-ci il noyabrın 21-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən partiya qısa müddətdə xalqın dəstəyini qazanıb. Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VIII Qurultayında qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması xalqın tələbi idi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə sabitlik təmin olundu, dövlətçiliyimiz möhkəmləndi. Bununla Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun rəhbərliyi ilə Azərbaycan böyük nailiyyətlər əldə edib”.

Natiq vurğulayıb ki, 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər və ərazi bütövlüyünün, dövlət suverenliyinin tam bərpası tariximizin ən mühüm hadisələrindəndir: “Hazırda işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri aparılır, Böyük Qayıdış Proqramı həyata keçirilir. Prezident İlham Əliyev partiyanın VIII Qurultayında ideoloji işin müasir tələblərə uyğun qurulmasının vacibliyini vurğulayıb. Bu gün əsas vəzifələrimizdən biri gənclərlə işi gücləndirmək və dövlət siyasətini ictimaiyyətə düzgün çatdırmaqdır. YAP Gəncə şəhər təşkilatı da partiya üzvləri ilə işi, maarifləndirici tədbirlərin təşkilini diqqətdə saxlayır. Əminəm ki, təşkilat bundan sonra da şəhərimizin ictimai həyatında fəal iştirak edəcək və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə öz töhfəsini verəcəkdir”.

Niyazi Bayramov bildirib ki, Yeni Azərbaycan Partiyasının 34 illik fəaliyyəti ölkəmizin müstəqillik tarixi ilə sıx bağlıdır: “Bu gün partiyanın yaradıcısı, Ulu Öndər Heydər Əliyevin xidmətlərini ehtiramla yad edir, Onun siyasi irsinə sadiqliyimizi bir daha ifadə edirik. Bu münasibətlə partiya üzvlərini və tədbir iştirakçılarını ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram”.

Çıxış edən Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, Azərbaycanın taleyinin həll olunduğu, müstəqil dövlətçiliyimizin ciddi sınaqlarla üzləşdiyi mürəkkəb bir dövrdə - 1992-ci ildə ölkənin qabaqcıl ziyalılarının və nüfuzlu nümayəndələrinin təşəbbüsü ilə Ulu Öndər Heydər Əliyevin dühasının işığında yaradılan Yeni Azərbaycan Partiyası xalqın ümid və inam ünvanı olmuşdur: “Bu partiyanın yaranması əslində Azərbaycanın gələcək inkişaf yolunun müəyyən edilməsi, dövlətçilik ideyalarının siyasi müstəvidə səfərbər olunması missiyası idi. Bu taleyüklü missiyanın arxasında isə Azərbaycan tarixinin ən qüdrətli dövlət xadimi olan Ulu Öndər Heydər Əliyev fenomeni dayanırdı. Heydər Əliyev fenomeni böyük siyasi təcrübə və idarəçilik bacarığı ilə yanaşı, xalqına sonsuz sevginin, dövlətçilik təfəkküründən, siyasi uzaqgörənliyin və ən çətin məqamlarda tarixi məsuliyyəti öz üzərinə götürmək cəsarətinin təcəssümü idi. Məhz Ulu Öndər Heydər Əliyevin siyasi dühası Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi, dövlətçiliyimizin əsaslarını möhkəmləndirdi, ölkəmizin müasir inkişaf strategiyasını müəyyənləşdirdi. Bu gün qürurla deyə bilərik ki, Yeni Azərbaycan Partiyasının keçdiyi yol müstəqil Azərbaycan dövlətinin formalaşması və güclənməsi tarixi ilə ayrılmaz şəkildə bağlıdır”.

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi mərhələdə uğurla davam etdirilir: “Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız milli birliyin möhkəmlənməsi, siyasi dialoqun davamlı olması, müstəqil Azərbaycanı daha da qüdrətləndirmək, ölkəmizin beynəlxalq imicini daha da artırmaq, sosial rifahı yüksəltmək kimi vəzifələri layiqincə yerinə yetirmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, partiyamızın inkişafında, ictimai-siyasi nüfuzunun artırılmasında, partiyadaxili münasibətlərdə səmimiyyətin və davranış mədəniyyətinin yüksəlməsində YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın fəaliyyəti və təşəbbüsləri böyük rol oynamışdır”.




Musa Quliyev əlavə edib ki, bu gün Azərbaycanın qarşısında yeni inkişaf mərhələsinin hədəfləri dayanır: “İqtisadiyyatın şaxələndirilməsi, sosial rifahın yüksəldilməsi, layiqli məşğulluğun təmin edilməsi, təhsil və səhiyyənin keyfiyyətinin artırılması, sosial ədalətin gücləndirilməsi bu mərhələnin əsas prioritetləridir. Tam əminliklə söyləyə bilərik ki, Yeni Azərbaycan Partiyası öz tarixi ənənələrinə, Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyən edilmiş strateji hədəflərə sadiq qalaraq Azərbaycanın qarşıdakı inkişaf mərhələsində də böyük uğurlara imza atacaqdır”.

Gəncə Tibb Kollecinin direktoru, Əməkdar həkim Mehman Rzayev qeyd edib ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi hadisə idi: “34 il bundan əvvəl tarixin məhz bu günündə dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda təsis olunan partiyamız qısa zamanda bütün ölkədə böyük nüfuz qazanmağa başladı. Bu da təsadüfi deyildi. Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək idi. Çünki Ulu Öndər həmişə xalqa xidmət edirdi, xalqın qayğıları ilə yaşayırdı, xalqla birlikdə idi”.

Natiq əlavə edib ki, 1993-cü ilin əvvəlləri Azərbaycanın yeni tarixinin ən ağır, dramatik və taleyüklü dövrü idi: “Ölkə daxilində hökm sürən dərin siyasi böhran, hakimiyyət boşluğu, səriştəsiz idarəçilik və öhdəsindən gəlinməyən iqtisadi tənəzzül respublikanı məhv olmaq təhlükəsi ilə üzüzə qoymuşdu. Bu qardaş qırğını və xaotik vəziyyətin pik nöqtəsi isə məhz qədim Gəncə şəhərində baş verən 1993-cü il 4 iyun hadisələri oldu. Gəncədə baş qaldıran silahlı qarşıdurma ölkəni vətəndaş müharibəsinin və parçalanmanın bir addımlığına gətirib çıxardı. Həmin ağrılı və həlledici məqamda xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya dəvət olunan Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdaraq Azərbaycan dövlətçiliyini xilas etdi. 1993-cü ilin iyununda Gəncədən başlayan ağır sınaqlar Ulu Öndər Heydər Əliyevin müdrikliyi sayəsində aradan qaldırıldı və ölkəmiz sabitlik yoluna qədəm qoydu”.

Mehman Rzayev vurğulayıb ki, bu gün Ümummilli Liderin ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir: “Hər zaman dövlətə və dövlətçiliyə sadiqliyi ilə seçilən Gəncə şəhəri bu gün də ölkənin ümumi tərəqqisinə öz töhfəsini verir, tarixi ənənələrinə sadiq qalaraq sürətlə inkişaf edir. Yeni Azərbaycan Partiyasının VIII Qurultayında qeyd olunan fikirlər Azərbaycanın keçdiyi tarixi yolun, əldə etdiyi böyük Zəfərin və qarşıdakı inkişaf perspektivlərinin vahid siyasi xətt çərçivəsində nəzərdən keçirildiyini göstərdi. Prezident İlham Əliyevin vurğuladığı kimi, güclü dövlətçilik ənənələrinin davam etdirilməsi, milli maraqların qorunması, iqtisadi inkişafın sürətləndirilməsi, sosial rifahın yüksəldilməsi və Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsi qarşıdakı mərhələnin başlıca hədəfləri kimi müəyyənləşir”.

“1 saylı” Ərazi Partiya Təşkilatı sədrinin müavini Gülnar Fazilqızı çıxışında qeyd edib ki, gənclərin bilikli, təşəbbüskar, vətənpərvər və milli-mənəvi dəyərlərə bağlı ruhda yetişməsi dövlətimizin gələcəyi baxımından mühüm əhəmiyyət daşıyır: “Yeni Azərbaycan Partiyası yarandığı gündən gənclərlə işi fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Partiyanın gənclər siyasətinin əsas məqsədi onların potensialını üzə çıxarmaq, ictimai-siyasi fəallığını artırmaq, təşəbbüslərini dəstəkləmək və gələcəkdə ölkənin idarə olunmasında iştirak edə biləcək gənc kadrların yetişməsinə töhfə verməkdir. YAP Gəncə şəhər təşkilatı tərəfindən də bu istiqamətdə müxtəlif layihələr həyata keçirilir. Gənclərin bilik və bacarıqlarının artırılması, dünyagörüşünün genişləndirilməsi, dövlətçilik tariximizin və milli-mənəvi dəyərlərimizin öyrənilməsi məqsədilə seminarlar, təlimlər, debatlar, intellektual layihələr və müzakirələr təşkil olunur. Gənclərin ictimai fəallığından danışarkən könüllülük fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. Müxtəlif sosial, mədəni və xeyriyyə tədbirlərində iştirak, şəhid ailələrinə və müharibə veteranlarına dəstək gənclərdə məsuliyyət, həmrəylik və cəmiyyətə faydalı olmaq düşüncəsini gücləndirir”.

Gülnar Fazilqızı vurğulayıb ki, Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VIII Qurultayındakı çıxışında gənc nəslin tarixi yaddaşının, təhsilinin və vətənpərvərlik tərbiyəsinin əhəmiyyətini vurğuladı: “Gənclər tariximizi bilməli, milli dəyərlərimizi qorumalı və ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər. Gəncə zəngin tarixi, mədəniyyəti və ziyalı ənənələri olan şəhərdir. İnanıram ki, Gəncə gəncləri də bu ənənələri davam etdirərək təhsildə, elmdə, mədəniyyətdə və ictimai həyatda fəallıqları ilə doğma şəhərimizin inkişafına töhfə verəcəklər”.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

# “Milli kimlik və dövlətçilik: yeni dövrdə gənclər siyasətinin ideoloji prioritetləri”








Noyabrın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və Şəmkir rayon təşkilatının birgə təşkilatçılığı ilə “Milli kimlik və dövlətçilik: yeni dövrdə gənclər siyasətinin ideoloji prioritetləri” mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Şəmkir Şəhər Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Şəmkir rayon təşkilatının sədri Zamir Güvəndiyev milli kimliyin qorunmasında, dövlətçilik ənənələrinin yaşadılmasında və gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında azərbaycançılıq ideologiyasının rolundan bəhs edib. O, ölkəmizin zəngin tarixi və milli-mənəvi irsinin gənc nəslin dünyagörüşünün və vətənpərvərlik ruhunun formalaşmasında mühüm rol oynadığını qeyd edib. Həmçinin, gənclərin ictimai fəallığının artırılmasının, təşəbbüskarlığının dəstəklənməsinin və dövlətçilik dəyərlərinə bağlılığının gücləndirilməsinin vacibliyini vurğulayıb.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva çıxışında Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərini və müasir prioritetləri diqqətə çatdırıb. O, milli-mənəvi dəyərlərə bağlılıqla müasir dünyagörüşünün uzlaşdırılmasının, gənclərin intellektual potensialının inkişaf etdirilməsinin, innovativ təşəbbüslərinin dəstəklənməsinin əhəmiyyətini qeyd edib. Vurğulanıb ki, gənclər rəqəmsal transformasiya və texnoloji yeniliklərin yaratdığı imkanlardan səmərəli istifadə etməklə ölkənin inkişafına töhfə verməlidirlər.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxışında regional inkişafın təmin olunmasında gənclərin potensialından səmərəli istifadənin, onların təhsil, məşğulluq və peşə hazırlığı imkanlarının genişləndirilməsinin əhəmiyyətindən bəhs edib. O, insan kapitalının keyfiyyətinin dövlətin inkişaf potensialını müəyyən edən əsas amillərdən biri olduğunu qeyd edərək, gənclərin müasir biliklərə yiyələnməsinin və əldə etdikləri bacarıqları real fəaliyyətə çevirməsinin vacibliyini vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mübariz Qurbanlı milli dövlətçilik ənənələrinin tarixi köklərindən, azərbaycançılıq ideologiyasının mahiyyətindən və müstəqil dövlətçilik düşüncəsinin formalaşmasında tarixi irsin rolundan danışıb. O, Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və milli ideologiyanın formalaşdırılması istiqamətindəki tarixi xidmətlərini diqqətə çatdırıb. Qeyd edilib ki, gənclərin dövlətçilik tariximizi elmi əsaslarla öyrənməsi, tarixi hadisələrin mahiyyətini dərindən dərk etməsi və milli maraqlar mövqeyindən qiymətləndirməsi mühüm əhəmiyyət daşıyır.

YAP Mərkəzi Aparatının rəhbərinin müavini Ramilə Bədəlova çıxışında gənclərlə işin sistemli təşkilinin, milli dövlətçilik düşüncəsinin gənc nəslə aşılanmasının, milli özünüdərkin gücləndirilməsinin və gənclərin ictimai-siyasi proseslərdə fəal iştirakının vacibliyinə diqqət çəkib. O bildirib ki, müasir dövrdə informasiya axınının genişlənməsi, müxtəlif ideoloji təsirlərin artması və qloballaşma prosesləri milli kimliyin qorunmasını daha da aktuallaşdırır. Qeyd olunub ki, belə bir şəraitdə gənclərin milli tariximizi, mədəni irsimizi, dilimizi və mənəvi dəyərlərimizi dərindən mənimsəməsi, eyni zamanda, müasir çağırışlara adekvat yanaşması vacibdir.

Milli Məclisin deputatı Nurlan Həsənov müasir dövrdə milli kimliyin və dövlətçilik dəyərlərinin qorunmasının hüquqi dövlət prinsipləri, konstitusion dəyərlər və informasiya təhlükəsizliyi ilə qarşılıqlı əlaqəsindən bəhs edib. Deputat rəqəmsal mühitdə dezinformasiya, informasiya manipulyasiyaları və hibrid təhdidlərin yaratdığı çağırışlara toxunaraq, gənclərin intellektual potensialının artırılmasının xüsusi əhəmiyyət daşıdığını bildirib.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Rəqəmsal inkişafın tarixi nailiyyəti

## Azərbaycan beynəlxalq rəqəmsal rəqabətdə öz mövqeyini möhkəmləndirir

Məlum olduğu kimi Azərbaycan BMT-nin Elektron Hökumətin İnkişafı İndeksi (E-Government Development Index - EGDI) üzrə 36 pillə irəliləyərək 194 ölkə arasında 38-ci yerə yüksəlib. Ölkəmizin EGDI göstəricisi 2024-cü ildəki 0,7607 baldan 2026-cı ildə 0,8847 bala yüksəlib. Bu, iki il ərzində 16,3 faiz artım deməkdir və nəticədə Azərbaycan “Çox Yüksək Elektron Hökumət İnkişafı” alt-indeksi V3 altqrupuna daxil olub. Bu altqrupda Kanada, Çin, Yaponiya, Avstriya, Türkiyə və Özbəkistan kimi ölkələr də təmsil olunur.

Azərbaycanın həmin indeks üzrə ən yüksək nəticə göstərdiyi istiqamət Onlayn Xidmətlər alt-indeksidir. Ölkəmiz bu göstərici üzrə 56 pillə irəliləyərək dünyada 11-ci yerə yüksəlib və Böyük Britaniya, İslandiya, ABŞ, Kanada və Norveç kimi inkişaf etmiş ölkələri qabaqlayıb. İndeksin xidmətlərin təqdim edilməsi altindeksi üzrə ölkəmiz dünyada 10-cu, institusional çərçivə üzrə isə 1-ci yerdədir. Qeyd edək ki, xidmət təqdimatı altindeksində Azərbaycan dünya üzrə EHİİ göstəricisinə görə 8-ci mövqedə olan Estoniya ilə 10-cu yeri bölüşür.

Telekommunikasiya İnfrastruktur İndeksi üzrə də müsbət dinamika qeydə alınıb. Azərbaycanın bu indeks üzrə göstəricisi 2024-cü illə müqayisədə 9,4 faiz artıb. Dünya üzrə orta artım isə 2,1 faiz təşkil edib. İnsan Kapitalı İndeksi üzrə isə Azərbaycanın öz mövqeyini 0,7233 baldan 0,8067 bala yüksələrək 11,5 faiz artırıb. Ölkəmiz bu indeks üzrə Çin və Ermənistanı qabaqlayıb.

Beləliklə, ölkəmiz beynəlxalq E-Hökumət tədqiqatında dünyanın ən islahatçı dövlətlər qrupunda yer almaqla rəqəmsal inkişafda öz iradəsini nümayiş etdirib.

## “GovTech Yetkinliyi İndeksi”ndə yüksək nəticə

Azərbaycanın əldə etdiyi nailiyyətlərin əsas təməlində hökumətin innovasiya sahəsində ortaya qotduğu iradə və rəqəmsal transformasiya sahəsində atılan mühüm addımlar, möhkəm infrastrukturun yaradılması, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, süni intellekt texnologiyalarının tətbiqi, kibertəhlükəsizliyin təmin edilməsi və digər kompleks tədbirlər dayanır. Bu uğurların mühüm bir istiqaməti kimi ötən il Azərbaycan qəbul olunmuş “Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi” çərçivəsində müəyyən edilmiş hədəflərə nail olunub. Son 4 il ərzində ölkədə orta internet sürəti 7 dəfə artaraq 12.81 Mbit/saniyədən 90 Mbit/saniyəyədək yüksəlib. “Onlayn Azərbaycan” layihəsinin icrası sayəsində müasir IMS platforması ilə işləyən GPON avadanlığı və optik infrastruktur qurulub.

Ölkə ərazisinin fiber-optik şəbəkə ilə geniş əhatə olunması tam başa çatdırılıb. Yüksək standartlara cavab verən “Hökumət buludu” istifadəyə verilib və data mərkəzinə keçid edən qurumların sayı 3 dəfə artaraq 148-ə çatıb. Hazırda mövcud data mərkəzlərindən gücü 3 dəfə artıq olan yeni data mərkəzlərinin inşası davam etdirilir. Biometrik rəqəmsal imzanın (SİMA) uğurlu tətbiqi isə onlayn identifikasiyanı sadələşdirərək, dövlət və özəl sektor xidmətlərinin məsafədən göstərilməsini təmin edib. Habelə “Mygov” platforması yenidən qurularaq 2.5 milyondan artıq vətəndaşa xidmət göstərir. Hazırda sənədlərin fiziki təqdim edilməsinə ehtiyac aradan qaldırılaraq 2.3 milyondan artıq rəqəmsal sənəd “Mygov” platforması vasitəsilə təqdim edilməkdədir.

Ölkəmizin innovasiya ekosisteminin inkişafı ilə bağlı da güclü infrastruktur qurulub, biznes üçün bir sıra güzəştlər edilib.



Vergi və Miqrasiya məcəllələrində, “Gömrük tarifi haqqında” və “Sosial sığorta haqqında” qanunlarında edilmiş dəyişikliklərə əsasən, texnologiyalar parkının rezidentləri vergi, gömrük və sosial güzəştlərlə əhatə olunublar.

Dünya Bankının ötən il dərc etdiyi “GovTech Yetkinliyi İndeksi”nin hesabatında yüksək nəticələr əldə edən Azərbaycan Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə ən yaxşı ölkələr qrupunda yer alıb.

## Rəqəmsal İnkişaf Şurası - yeni cəmiyyət quruculuğunda yeni mərhələ

Bu prioritetlərin sistemli şəkildə həyata keçirilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal İnkişaf Şurasının fəaliyyəti də xüsusi əhəmiyyət daşıyır. Şura qısa müddət ərzində öz fəaliyyət sahəsinə aid strateji məsələlərin həllində mühüm addımlar atıb. Ötən dövrdə dövlət qurumlarının vahid rəqəmsal platformaya inteqrasiyası sürətlənib, səhiyyə, gömrük və təhsil sahələrini əhatə edən, digər dövlət qurumları ilə birgə həyata keçirilməsi nəzərdə tutulan potensial süni intellekt həlləri müəyyən olunub. Qısa müddət ərzində “e-Sosial”, “e-Təbib” və “e-Su” tətbiqləri tam şəkildə platformaya inteqrasiya olunub. Bundan əlavə, “e-Polis”, “Mobil Notariat”, “Azərişıq”, “Reseptim”, “e-Səhiyyə”, “ASAN Müraciət” tətbiqlərinin bir çox xidmətləri inteqrasiya edilib və ilin sonunadək onların bütün xidmətlərinin tam şəkildə “mygov” üzərindən təqdim edilməsi planlaşdırılır.

Rəqəmsal inkişafın əsas yeniliklərindən biri dövlət xidmətlərinin təqdim edilməsində pərakəndəliyin aradan qaldırılması və vahid mərkəzləşdirilmiş sistemə keçiddir. Bu sxemə əsasən, bütün rəqəmsal dövlət xidmətləri, o cümlədən sənədlər yalnız “mygov” və “mygov Biznes” platformaları vasitəsilə vətəndaşlara və sahibkarlara təqdim olunması, ayrı-ayrı qurumların fərdi portal və mobil tətbiqlərinin vahid ekosistemdə birləşdirilməsi sayəsində də ardıcıl işlər aparılır. Rəqəmsal mühitdə biznes-dövlət münasibətlərinin optimallaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Dövlət, biznes və cəmiyyətin birgə fəaliyyəti iqtisadi həmrəyliyi təmin etməklə, rəqəmsal iqtisadiyyat quruculuğuna güclü təkan verir. Bu cəhətdən rəqəmsal transformasiyada özəl sektorun liderliyinin gücləndirilməsi, ailə-biznes modellərinin və fərdi sənaye istedadlarının, xüsusilə də startap və süni zəka sahəsində fəaliyyətinin stimulaşdırılması üçün çevik platformalar qurulmaqdadır.

## Transxəzər Fiber-Optik Kabeli - “Rəqəmsal İpək Yolu”nun əsas xətti

Azərbaycan regionda rəqəmsal tranzit xəttinin qurulmasında da səylərini dayanmadan gücləndirir. Qazaxıstan hökuməti ilə birgə Avropa ilə Asiya arasında yeni rəqəmsal dəhlizin yaradılmasını nəzərdə tutan “Rəqəmsal İpək Yolu” (Digital Silk Way) layihəsinin mühüm komponenti olan Transxəzər Fiber-Optik Kabel Xəttini ötən ay istifadəyə verib. Bu rabitə platforması çoxterabitli məlumatların ötürülməsini və 400 terabit/s-ə qədər yüksəksürətli internet bağlantısının qurulmasını təmin edir. Transxəzər xətti təkcə iki ölkənin kommunikasiya layihəsi deyil, eyni zamanda, müxtəlif ölkələrin, o cümlədən Gürcüstan, Türkiyə və Türkmənistan ərazilərindən keçməklə Asiya-Azərbaycan-Avropa regionları arasında yeni bağlantı hesab edilir. Bu rəqəmsal infrastruktur landşaftı həmin ölkələr arasında məlumatların ötürülməsində yüksək zolaq genişliyi və minimal gecikməni təmin edəcək.

Qeyd edək ki, Azərbaycan cari il avqustun 28-də Rəqəmsal Əməkdaşlıq Təşkilatının (Digital Cooperation Organization - DCO) tamhüquqlu üzvü seçilib. Bu, ölkəmizin beynəlxalq innovasiya və rəqəmsal iqtisadiyyat xəritəsindəki mövqeyini keyfiyyətcə yeni mərhələyə çıxarmış mühüm hadisə kimi yadda qalıb.

Beləliklə, Azərbaycanın həyata keçirdiyi uğurlu rəqəmsal strategiya ölkəmizin Cənubi Qafqaz regionunda rəqəmsal iqtisadiyyat mərkəzinə çevrilməsi və Digital Silk Way tranziti qurmasında institisional və praktiki dəstəkverici rol oynayacaq, rəqəmsal sıçrayışa çatmasında mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

## 2027-ci ildə ölkəmizdə inflyasiya sabit qalacaq

# “ING” proqnozunu yenilədi

Niderlandın ən böyük maliyyə-bank təsisatlarından olan “ING Group” region ölkələri ilə bağlı yenilənmiş inflyasiya proqnozunu açıqlayıb. Təşkilatın hesabatında Azərbaycanda 2026-cı il üzrə orta illik inflyasiyanın 4,8-5 faiz civarında olacağı proqnozlaşdırılır. “ING” qrupunun Qafqaz, Mərkəzi Asiya və Rusiya üzrə baş iqtisadçısı Dmitri Dolqin bildirib ki, Azərbaycanın hökumətinin iqtisadi bloku xarici inflyasiya təzyiqlərini neytrallaşdırmaq üçün nəzarət mexanizmini diqqətdə saxlamaqla, çox yaxşı sabitləşdirici nəticələr əldə etməyə nail olmaqdadır. Azərbaycan Qafqaz və Mərkəzi Asiyanın digər ölkələrinə nisbətən Aİ və ya Çin kimi ticarət tərəfdaşları ilə mübadilələrdə inflyasiya təsirlərinə daha çox məruz qalsa da, qiymət indeksinin müəyyən olunmuş hədəf çərçivəsində saxlanması mümkündür.

**Geosiyasi və geoiqtisadi risklər inflyasiya təzyiqi yaradır**

D.Dolqin növbəti ildə də qiymət bazarı ilə bağlı xarici amillərin təsiredici rolunun qalacağını istisna etməyib. İqtisadçının fikrincə, qlobal bazar gərginlikləri bütün region ölkələrinin inflyasiya portfellərinə təzyiq edəcək, ancaq riskli qiymət təhdidlərini düşünmək olmaz. Dolqin müxtəlif regionlarda inflyasiyanın Mərkəzi bankların uçot siyasətinə dəyişiklik edəcəyi ssenarililərinin mümkünlüyünü istisna etməyib. İnflyasiya üzrə risklər əsasən beynəlxalq mühitlə bağlıdır. Qlobal geosiyasi qeyri-müəyyənlik fonunda enerji və ərzaq qiymətlərinin artması, eləcə də bu artımın əsas ticarət tərəfdaşları vasitəsilə daxili qiymətlərə ötürülməsi riski əhəmiyyətli olaraq qalır. Bu ötürülmənin dərəcəsi, digər amillərlə yanaşı, manatın nominal effektiv məzənnəsinin dinamikasından asılı olacaq.

**Uçot dərəcəsinin sabit qalacağı fərz edilir**

Azərbaycana gəlincə, Mərkəzi Bankın (MB) qiymət indeksi ilə bağlı yenilənmiş proqnozlarına görə, 2027-ci ildə inflyasiya 5,9 faiz olacaq. Yəni, ehtimal olunan faiz həddi hədəf diapazonunun saxlanılması fonunda uçot siyasətinə hansısa dəyişikliklər labüd etmir. Mərkəzi Bankın uçot dərəcəsini artırması o halda mümkün ola bilər ki, qiymət indeksi qeyd edilən yuxarı hədd diapozonunu ötsün. Əks halda faiz dərəcəsinin artırılmasına ehtiyac yaranmayacaq.




Xatırladaq ki, hazırda Azərbaycanda uçot dərəcəsi 6,5 faiz, dəhlizin aşağı həddi 5 faiz və yuxarı həddi isə 7,5 faiz səviyyəsində sabit saxlanılıb. MB faiz dəhlizinin parametrlərinə dair qərar qəbul olunarkən ümumi və baza inflyasiya göstəricilərinin, inflyasiya gözləntilərinin və risklər balansının dinamikası nəzərə alır. Hazırda illik inflyasiya hədəf diapazonu daxilindədir və baza ssenarisi üzrə proqnoz trayektoriyasına uyğun hərəkət edir. Bu baxımdan uçot dəhlizinin 2027-ci də dayanıqlı olacağı fərz edilir.

**2026-2028-ci illərdə ÜDM-in orta artımı 2,4 faiz olacaq**

“ING Group” Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı proqnozlarını da dəyişməz saxlayıb. Təşkilat 2026-cı ildə qlobal iqtisadiyyatla bağlı yenilənmiş proqnozunda Azərbaycan iqtisadiyyatını sabit və inkişaf edən və iqtisadi artımın ümidverici olduğunu əks etdirən göstəricilər əsasında xarakterizə edib. Təşkilatın ehtimallarına görə, dünya bazarlarında neft qiymətlərinin yüksək olması fonunda Azərbaycanın cari əməliyyatlar hesabının profisiti 2026-cı ildə ümumi daxili məhsulun (ÜDM) 9-10 faizini təşkil edə bilər. Xammal mallarının qiymətinin artması və portfel investisiyalarının əhəmiyyətli dərəcədə axını MDB regionu ölkələrində karbohidrogen ixracatçılarının xarici mövqelərini gücləndirir və regional valyutaların məzənnələrini dəstəkləyir.

Yüksək enerji qiymətləri tədiyyə balansı göstəricilərini yaxşılaşdırsa da, Azərbaycanda iqtisadi artıma əsas təsir edəcək amil qeyri-neft sektorunda dinamikadır. Bu baxımdan ÜDM-in artım neft qiymətlərindən daha çox, qeyri-neft sektorundakı dayanıqlılığa söykənir. “İNG” hesab edir ki, ölkəmizdə 2026-cı ildə iqtisadi artım 2 faiz, 2027-ci ildə 3 faiz, 2028-ci ildə 2,3 faiz səviyyəsində proqnozlaşdırılır. Beləliklə, ölkəmizdə ÜDM-nin 2026-2028-ci illərdə orta illik artımı 2,43 faiz səviyyəsində fərz edilir.

***E.CƏFƏRLİ***

# Ukrayna müharibəsinin sonuna aparan yol

## Vaşinqtonun hesabı, Moskvanın köhnə tələbləri və 2027-ci ilin siyasi mənzərəsi

Əbu-Dabidə danışıqların yenidən başlanması, Donbas üçün irəli sürülən yeni təkliflər, Avropanın masa arxasına qayıtması və 2027-ci ilin yayına qədər mümkün diplomatik dönüş dünya siyasətində yeni mərhələnin başlanğıcına çevrilə bilər.

ABŞ diplomatiyasının qarşısında indi yalnız Ukrayna müharibəsini dayandırmaq vəzifəsi durmur. Vaşinqton eyni zamanda Avropanın gələcək təhlükəsizlik sistemini, Rusiyanın beynəlxalq münasibətlərdə yerini, NATO-nun qarşıdakı illərdəki rolunu və Çinlə rəqabət şəraitində öz siyasi imkanlarını müəyyənləşdirməyə çalışır. Ukrayna müharibəsi bu məsələlərin hamısının bir nöqtədə birləşdiyi mürəkkəb siyasi hadisəyə çevrilib. Bu səbəbdən Əbu-Dabidə keçirilən danışıqlara yalnız atəşin dayandırılması üçün təşkil edilmiş görüş kimi yanaşmaq düzgün olmaz.

Noyabrın 10-11-də ABŞ, Rusiya və Ukrayna nümayəndələri Əbu-Dabidə doqquz aylıq fasilədən sonra yenidən üçtərəfli danışıqlar apardılar. Görüşlərdə müharibədən sonrakı təhlükəsizlik təminatları, hərbi əməliyyatların azaldılması, humanitar məsələlər və gələcək diplomatik addımlar müzakirə edildi. Əldə olunan nəticələr arasında əsirlərin genişmiqyaslı mübadiləsi barədə razılıq xüsusi diqqət çəkdi. "Deutsche Welle" yazır ki,



ərazi məsələsi və atəşin dayandırılması üzrə əsas fikir ayrılıqları isə aradan qalxmadı. Bu görüşün əhəmiyyətini müəyyənləşdirən əsas məqam danışıqların yenidən başlanmasıdır, çünki 2026-cı ilin əvvəlində ABŞ vasitəçiliyilə aparılan diplomatik proses İranla bağlı hərbi qarşıdurmanın genişlənməsi və tərəflərin mövqelərinin sərtləşməsi səbəbindən dayanmışdı. İndi Vaşinqton yenidən Moskva ilə Kiyevi eyni diplomatik prosesə cəlb etməyə çalışır. Bu, ABŞ administrasiyasının Ukrayna məsələsini uzunmüddətli müharibə vəziyyətində saxlamaq əvəzinə siyasi nəticəyə gətirmək niyyətinin göstəricisi kimi qiymətləndirilə bilər.

Lakin danışıqların arxasında daha dərin məsələ dayanır. Rusiya ilə Qərb arasında qarşıdurma 2022-ci ilin fevralında başlayan müharibədən əvvəl də uzun illər ərzində formalaşmışdı. Moskva 2021-ci ilin dekabrında ABŞ və NATO-ya Avropada təhlükəsizlik sisteminin yenidən qurulmasına dair təkliflər vermiş, NATO-nun genişlənməsi, hərbi infrastrukturu və Rusiyanın təhlükəsizlik maraqları ilə bağlı ciddi dəyişikliklər tələb etmişdi. Qərb həmin tələblərin bir sıra əsas müddəalarını qəbul etməmişdi. Bu sənədlər indiki münaqişənin siyasi tarixini anlamaq üçün vacibdir.

NATO-nun 2008-ci ildə keçirilmiş Buxarest sammiti də bu mübahisənin mühüm mərhələlərindən biri hesab olunur. Həmin sammitdə Ukrayna və Gürcüstanın gələcəkdə NATO üzvü olacağı barədə siyasi bəyanat verilmiş, lakin onların üzvlüyü üçün konkret tarix müəyyən edilməmişdi. Bu qərar bir yandan həmin ölkələrin Avroatlantik inteqrasiyasına dair siyasi istiqamətini göstərir, o biri yandan Moskva tərəfindən Rusiyanın təhlükəsizlik maraqlarına qarşı addım kimi qəbul olunurdu. Sonrakı illərdə bu məsələ Rusiya ilə NATO arasında münasibətlərin ən mübahisəli mövzularından birinə çevrildi.

Ukrayna məsələsində 1994-cü il Budapeşt Memorandumu da xüsusi əhəmiyyət daşıyır. Sovet İttifaqının dağılmasından sonra Ukrayna dünyanın ən böyük nüvə arsenalına malik ölkələrindən biri olmuşdu. 1994-cü ildə nüvə silahından imtina etmək və onu Rusiya ərazisinə çıxarmaq istiqamətində razılaşmalar əldə olundu. Ukrayna nüvə silahından imtina edərək Nüvə Silahlarının Yayılmaması haqqında Müqaviləyə nüvə silahına malik olmayan dövlət kimi qoşuldu. Budapeşt Memorandumu çərçivəsində Ukraynanın suverenliyinə, ərazi bütövlüyünə və təhlükəsizliyinə dair təminat xarakterli öhdəliklər verilmişdi. 2014-cü ildə Krımın ilhaqı və 2022-ci ildə genişmiqyaslı müharibənin başlanması həmin təminatların praktik gücüylə bağlı ciddi mübahisələr yaratdı. Bu tarixi təcrübə indiki danışıqların ən həssas məsələsini izah edir: Ukrayna atəşin dayandırılmasına getsə, gələcəkdə yeni müharibənin başlanmayacağına hansı mexanizmlə əmin ola bilər?

Kiyev üçün bu sual ərazi məsələsindən də geniş siyasi məna daşıyır. Ukrayna rəhbərliyi müharibənin yalnız müəyyən müddətə dayandırılmasını, sonra isə daha ağır qarşıdurmanın başlanmasını istəmir. Buna görə təhlükəsizlik təminatları, gələcək hərbi imkanlar, beynəlxalq müşahidə mexanizmləri və müharibədən sonrakı müdafiə sistemi danışıqların əsas istiqamətlərinə çevrilir.

Minsk razılaşmalarının təcrübəsi də bu məsələyə təsir göstərir. 2014 və 2015-ci illərdə əldə edilmiş razılaşmalar Donbasda münaqişəni tam dayandıra bilmədi. Tərəflər razılaşmaların ayrı-ayrı müddəalarının icrası, siyasi dəyişikliklər, sərhəd nəzarəti və təhlükəsizlik məsələləri üzrə bir-birini ittiham edirdi. Nəticədə münaqişə həll olunmadan qaldı və 2022-ci ildə daha geniş müharibəyə çevrildi. İndi diplomatik tərəflər üçün əsas problem yalnız sənəd imzalamaq yox, həmin sənədin uzun müddət işləməsini təmin edəcək mexanizmi müəyyənləşdirməkdir.

**Vaşinqtonun vaxt hesabı və qarşıdakı diplomatik addımlar**

2027-ci ilin yayına qədər olan müddət diplomatik baxımdan xüsusi əhəmiyyət daşıya bilər. Ukrayna prezidenti Volodimir Zelenski bu ilin avqustunda ABŞ vasitəçiliyilə müharibənin sona çatması üçün 2026-cı ilin dekabrından 2027-ci ilin yayının sonuna qədər siyasi imkan pəncərəsinin mövcud olduğunu bildirmişdi. Onun açıqlamasında ABŞ-da 2028-ci il prezident seçkilərinə hazırlıq dövrünün diplomatik prosesə təsiri də nəzərə alınırdı.

Bu zaman çərçivəsinin arxasında siyasi məntiq var. ABŞ prezidentinin diplomatik təşəbbüsləri üçün siyasi nəticə əldə etmək imkanları daxili siyasi gündəmlə də bağlıdır. 2028-ci il prezident seçkiləri yaxınlaşdıqca xarici siyasətdə qazanılmış nəticələrin siyasi əhəmiyyəti arta bilər. Müharibənin sona çatması, böyük dövlətlər arasında razılaşma və Avropada təhlükəsizlik vəziyyətinin sabitləşməsi ABŞ rəhbərliyi üçün ciddi siyasi nailiyyət kimi təqdim oluna bilər. Bununla yanaşı, Konqresin mövqeyi, maliyyə qərarları, hərbi yardım və seçkiqabağı siyasi mübarizə diplomatik prosesə təsir göstərə bilər.

Əbu-Dabidəki görüşlərdən sonra Ukrayna nümayəndə heyətinin rəhbərlərindən David Araxamiya növbəti diplomatik mərhələnin ABŞ nümayəndələrinin Moskva və Dublin səfərlərindən sonra müəyyənləşdirilə biləcəyini bildirmişdi. Həmin mərhələdə Avropa nümayəndələrinin danışıqlara cəlb edilməsi və humanitar məsələlər də gündəmdəydi.

"Reuters"in məlumatına görə, noyabrın 19-da Vladimir Putin Avropa nümayəndələrinin Moskvaya gəlməsiylə bağlı diplomatik təklif irəli sürüldüyünü açıqlayıb. Onun sözlərinə görə, bu təmaslar Avropa tərəfinin Ukrayna üzrə sülh danışıqlarında hansı mövqedən çıxış etdiyini aydınlaşdırmaq məqsədi daşıyır. Putin Avropanın təhlükəsizliyinə dair məsələlərin Avropa ölkələrinin iştirakı olmadan müzakirə edilməsini mənasız saydığını bildirib. Bu açıqlama Avropa nümayəndələrinin gələcək danışıqlara qoşulması ehtimalını gündəmə gətirsə də, onların iştirak edəcəyi yeni danışıqlar formatı hələ razılaşdırılmayıb.

Əbu-Dabidə müzakirə olunan məsələlər arasında Ukraynanın gələcək təhlükəsizliyi, ərazi məsələləri və Avropanın rolunun müəyyənləşdirilməsi əsas yer tuturdu. ABŞ nümayəndələri eyni zamanda Avropa dövlətləriylə ayrıca təmaslara girərək müharibədən sonrakı təhlükəsizlik sisteminə dair müzakirələri genişləndirməyə çalışırdılar. Bu, gələcək razılaşmanın yalnız iki ölkə arasında atəşin dayandırılmasıyla məhdudlaşmayacağı, Avropanın təhlükəsizlik quruluşuna da təsir göstərə biləcəyi ehtimalını ortaya çıxarır.

Ən maraqlı təkliflərdən biri Donbasda sərbəst iqtisadi zona yaradılması ideyasıdır. Zelenski 2026-cı ilin avqustunda ABŞ və Avropa nümayəndələriylə hazırlanmış təkliflər arasında atəşin dayandırılması və Donbasın müəyyən hissəsində üçüncü tərəfin idarə edə biləcəyi sərbəst iqtisadi zona yaradılması ideyasının olduğunu bildirmişdi. Bu model ərazi məsələsinin tam siyasi həllini dərhal tələb etmədən iqtisadi və təhlükəsizlik baxımından yeni mexanizm yaratmaq cəhdi kimi nəzərdən keçirilə bilər. Belə bir zonanın yaradılması üçün ərazinin statusu, idarəetmə mexanizmi, təhlükəsizlik, iqtisadi fəaliyyət, sərhəd və hüquqi məsələlər üzrə çoxsaylı razılaşmalar tələb olunacaq. Moskva bu ideyanın həyata keçirilməsinin mümkünlüyünə şübhəylə yanaşıb. Buna görə həmin təklif hazırda konkret razılaşma kimi yox, diplomatik müzakirələrdə nəzərdən keçirilən variant kimi qiymətləndirilməlidir.

Dünyanın əsas narahatlığı isə müharibənin bitməsindən sonra yeni münaqişənin başlanması ehtimalıdır. Əgər atəşin dayandırılması yalnız hərbi əməliyyatların müvəqqəti azalmasıyla nəticələnərsə, Avropada silahlanma, müdafiə xərcləri və hərbi hazırlıq daha uzun müddət davam edə bilər. Əgər razılaşma təhlükəsizlik təminatları, beynəlxalq müşahidə, qarşılıqlı öhdəliklər və diplomatik mexanizmlərlə möhkəmləndirilərsə, Avropada daha sabit siyasi mühitin formalaşması üçün imkan yaranar.

2027-ci ildə müharibənin başa çatması mümkündür, lakin bu, hazırda zəmanətli nəticə kimi qələmə verilə bilməz. Əsas şərt tərəflərin siyasi kompromisə hazır olması, təhlükəsizlik məsələlərinin həll edilməsi və razılaşmanın icrasına nəzarət mexanizminin yaradılmasıdır. Diplomatik proseslərin indiki fəallığı sülh üçün yeni imkanlar yaradır, lakin bu imkanların real nəticəyə çevrilməsi hələ qarşıda duran mürəkkəb siyasi qərarlardan asılıdır. Müharibənin sona çatması Azərbaycanın da maraqlarına uyğun yeni regional və iqtisadi imkanlar yarada bilər. Avropada sabitliyin güclənməsi, beynəlxalq nəqliyyat marşrutlarının genişlənməsi, Şərq-Qərb ticarət əlaqələrinin artması və enerji əməkdaşlığının inkişafı Azərbaycanın tranzit və logistika imkanlarını daha da yüksəldər. Orta Dəhlizin əhəmiyyəti, Xəzər regionunun beynəlxalq iqtisadi əlaqələrdə mövqeyi və Azərbaycanın regional əməkdaşlıq təşəbbüsləri belə bir sülh şəraitində daha geniş perspektiv qazanar.

2027-ci il dünyanın müharibədən sülhə keçid ili ola bilər. Bunun üçün diplomatik görüşlərin sayı yox, həmin görüşlərdə qəbul edilən qərarların real siyasi nəticəyə çevrilməsi əsasdır. Hazırda Vaşinqton, Moskva, Kiyev və Avropa paytaxtları qarşısında duran ən böyük vəzifə müharibəni dayandırmaqla yanaşı, gələcəkdə onun yenidən başlanmasının qarşısını alacaq təhlükəsizlik sistemini yaratmaqdır.



***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

# Şençjen görüşü: dünyanın yeni siyasi nizamı necə formalaşır?

Dünya siyasi səhnəsində bəzən elə görüşlər keçirilir ki, onların əsl mənası fotoşəkillərdə, rəsmi bəyanatlarda və imzalanan sənədlərdə görünəndən daha böyük olur. Şençjendə Donald Tramp, Vladimir Putin və Si Cinpinin bir araya gəlməsi də belə hadisələrdən biri kimi qiymətləndirilə bilər. Bəlkə də qarşıdakı illərin siyasi xəritəsi məhz bu gün açıq şəkildə söylənməyən, qapalı müzakirələrdə səsləndirilən fikirlər əsasında tərtib olunacaq.

**Üç lider dünya xəritəsini dəyişə bilərmi?**

Şençjen görüşünün ən çox müzakirə doğuran tərəfi onun Yalta konfransıyla müqayisə edilməsidir. 1945-ci ildə Yaltada ABŞ, Böyük Britaniya və Sovet İttifaqının rəhbərləri müharibədən sonrakı Avropanın siyasi mənzərəsini müzakirə etmiş, dünyanın gələcək siyasi bölgüsünə təsir göstərən qərarlar vermişdilər. Bu gün Şençjen görüşünü yeni Yalta adlandırmaq tələskənlik olardı - müasir dünya 1945-ci ilin dünyasıyla müqayisə edilə bilməz. Dövlətlərin sayı artıb, iqtisadi əlaqələr daha mürəkkəb xarakter alıb, beynəlxalq hüquq, regional təşkilatlar, ictimai rəy və müstəqil dövlətlərin iradəsi dünya siyasətinə daha geniş təsir göstərir.



Lakin Şençjen görüşünün tarixi paralellər yaratması da təsadüfi deyil. Üç dövlət dünyanın ən böyük nüvə gücləridir və onların münasibətlərində baş verən dəyişikliklər beynəlxalq təhlükəsizliyə birbaşa təsir göstərir. Beynəlxalq ekspertlərin və analitik mərkəzlərin ilkin qiymətləndirmələrində Şençjen görüşünün həm simvolik, həm də diplomatik əhəmiyyəti vurğulanır. Bəzi təhlillərdə Vladimir Putinin görüşdən siyasi üstünlük qazandığı, Si Cinpinin Çin diplomatiyasının beynəlxalq mövqeyini nümayiş etdirdiyi, Donald Trampın isə birbaşa liderlərarası dialoqa üstünlük verən siyasətini davam etdirdiyi qeyd olunur.

Şençjen görüşünün əsl siyasi mesajı bəlkə də budur: dünyanın gələcəyini yalnız müharibələr, sanksiyalar və ultimatumlar vasitəsilə müəyyənləşdirmək mümkün olmayacaq; böyük dövlətlər də bir-birinin mövcudluğunu, gücünü və maraqlarını nəzərə almağa məcburdur. Putinin qazandığı siyasi üstünlük barədə danışarkən bir məqamı nəzərə almaq lazımdır: Rusiya 2022-ci ildən sonra Qərbin geniş sanksiyaları, diplomatik təcrid cəhdləri və Ukrayna müharibəsi səbəbindən beynəlxalq münasibətlərdə ciddi təzyiqlərlə üzləşib. ABŞ və Çin liderləriylə birbaşa görüş onun beynəlxalq siyasi təmaslarının davam etdiyini göstərdi. Bu, Rusiyanın bütün problemlərinin həll olunduğu və ya sanksiyaların aradan qaldırılacağı anlamına gəlmir, lakin siyasi təcrid görüntüsünün zəifləməsi Moskva üçün diplomatik baxımdan əhəmiyyətli hadisədir.

Çin isə bu görüşdən fərqli bir qazanc götürdü. Şençjen dünya siyasətinin əsas müzakirə platformalarından birinə çevrildi. Si Cinpin ABŞ və Rusiya rəhbərlərini eyni şəhərdə qarşılamaqla Pekinin beynəlxalq məsələlərdə daha fəal iştirak etdiyini göstərdi. "Vaşinqton Post"un qiymətləndirməsində də Çin liderinin görüşün təşkilindən diplomatik üstünlük qazandığı, ölkəsinin qlobal siyasi proseslərdə mərkəzi rolunu nümayiş etdirdiyi vurğulanır.

Trampın siyasi yanaşması isə görüşün başqa bir tərəfini ortaya çıxarır. ABŞ prezidenti beynəlxalq problemlərin həllində birbaşa liderlərarası münasibətlərə, şəxsi danışıqlara və siyasi razılaşmalara üstünlük verir. Bu yanaşmanın uğurlu olub-olmaması gələcək hadisələrdən asılı olacaq. Ancaq bir həqiqət var: böyük dövlətlərin rəhbərləri arasında birbaşa əlaqələrin mövcudluğu hərbi eskalasiya riskinin azaldılması üçün əlavə imkan yaradır. Nüvə silahına malik dövlətlərin rəhbərlərinin bir-biriylə danışması, qarşılıqlı mövqeləri öyrənməsi və təhlükələrin azaldılması barədə müzakirələr aparması dünya üçün vacibdir.

Şençjen görüşündə nüvə təhlükələrinin azaldılması barədə dialoqun davam etdirilməsi, BMT-nin islahatı və enerji təminatı ilə bağlı məsələlərin müzakirəsi də diqqətəlayiqdir. ABŞ və Rusiya arasında nüvə silahlarına əvvəlki nəzarət mexanizmlərinin zəiflədiyi, Çin arsenalının genişləndiyi və yeni silah sistemlərinin inkişafda olduğu bir vaxtda üç dövlətin bu məsələləri müzakirə etməsi gələcəkdə daha geniş danışıqlar üçün zəmin yarada bilər. Görüşdə yeni nüvə sazişi qəbul edilməyib, lakin dialoqun başlanması və davam etdirilməsi perspektivi əhəmiyyətlidir.

Ən böyük sual isə Ukrayna müharibəsinin nə vaxt başa çatacağıdır. Bu müharibə artıq yalnız iki dövlət arasında ərazi çəkişməsi və siyasi mübahisə kimi qalmayıb; Avropanın təhlükəsizlik sistemi, NATO-nun gələcək siyasəti, Rusiyanın Qərblə münasibətləri, enerji bazarları və beynəlxalq iqtisadiyyat Ukrayna müharibəsinin nəticələrindən asılı vəziyyətə gəlib. Müharibənin uzanması hər iki tərəf üçün ağır yükdür. İnsan itkiləri, iqtisadi xərclər, infrastruktura dəyən zərər və uzunmüddətli siyasi nəticələr sülhə ehtiyacı artırır.

Şençjen görüşü Ukrayna müharibəsini dayandıran sazişlə nəticələnməsə də, Trampın Putinlə danışıqlar barədə müsbət açıqlamaları və diplomatik həllə dair ehtimalın gündəmdə saxlanması diqqət çəkir. Bununla yanaşı, görüşdən sonra hərbi əməliyyatların davam etməsi, Rusiyanın yeni raket və dron hücumları, tərəflərin təhlükəsizlik məsələlərində fərqli mövqeləri sülhün hələ yaxın və asan proses olmadığını göstərir. "Reuters"in 20 noyabr tarixli məlumatında Trampın diplomatik həll üçün yaxşı imkan gördüyü, lakin təhlükəsizlik təminatları məsələsində konkret razılaşmanın olmadığı bildirilir.

Bununla belə, 2027-ci il müharibənin aktiv mərhələsinin dayandırılması üçün mühüm siyasi dövrə çevrilə bilər. Diplomatik danışıqların davam etdirilməsi, hərbi və iqtisadi yükün ağırlaşması, böyük dövlətlərin müharibənin uzunmüddətli nəticələrini nəzərə alması atəşkəs və ya döyüşlərin intensivliyinin azaldılması üçün imkan yarada bilər. Ən real nikbin ssenari müharibənin bütün siyasi və ərazi məsələlərinin dərhal həlli yox, əvvəlcə genişmiqyaslı döyüşlərin dayandırılması, daha sonra təhlükəsizlik və siyasi məsələlərin mərhələli şəkildə müzakirə edilməsidir. 2027-ci il bu istiqamətdə ciddi irəliləyiş üçün mümkün zaman çərçivəsi kimi nəzərdən keçirilə bilər. Bu proqnoz hazırda tərəflərin razılaşdırdığı plan yox, siyasi proseslərin mümkün inkişafına dair analitik ehtimaldır.

Ukrayna müharibəsinin sona çatması Azərbaycanın qarşısında da yeni imkanlar açа bilər. Bu məsələnin Azərbaycanın gələcəyi ilə əlaqəsi ilk baxışda göründən daha böyükdür. Azərbaycan Avropa ilə Asiya arasında yerləşən, Xəzər dənizinə çıxışı olan, enerji və nəqliyyat infrastrukturu inkişaf edən ölkədir. Dünya iqtisadiyyatında ticarət yollarının təhlükəsizliyinə, alternativ marşrutlara və enerji təminatının diversifikasiyasına ehtiyac artdıqca Azərbaycanın strateji əhəmiyyəti də yüksəlir.

Orta Dəhliz qarşıdakı illərdə Azərbaycanın iqtisadi inkişafında əsas istiqamətlərdən biri ola bilər. Çin, Mərkəzi Asiya və digər ölkələrdən gələn yüklərin Xəzər dənizi vasitəsilə Azərbaycan üzərindən Avropaya daşınması ölkəmizin tranzit imkanlarını genişləndirir. Beynəlxalq münasibətlərdə sabitliyin artması, Ukrayna müharibəsinin başa çatması və Avropa ilə Asiya arasında ticarətin genişlənməsi bu marşruta olan tələbatı daha da artırmaq imkanına malikdir. Azərbaycanın liman, dəmir yolu, logistika, enerji və rəqəmsal infrastruktura yatırdığı investisiyalar gələcəkdə daha böyük iqtisadi nəticələr verə bilər.

Ən maraqlı perspektiv isə Azərbaycanın yalnız tranzit ölkəsi kimi yox, regionun iqtisadi və siyasi əməkdaşlıq mərkəzlərindən biri kimi inkişaf etməsidir. Nəqliyyat, enerji, süni intellekt, rəqəmsal texnologiyalar, sənaye, turizm və bərpa olunan enerji sahələrində yeni layihələr ölkənin iqtisadi imkanlarını genişləndirə bilər. Cənubi Qafqazda sülhün möhkəmlənməsi, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, regional nəqliyyat əlaqələrinin açılması və ticarətin inkişafı bu perspektivi daha da gücləndirə bilər.

Şençjen görüşü dünyanın sabah tamamilə dəyişəcəyini göstərən hadisə kimi qəbul edilməməlidir. Lakin bu görüş böyük dövlətlərin qarşıdurma şəraitində belə dialoqa ehtiyac duyduğunu nümayiş etdirir. Dünya siyasətində yeni mərhələnin formalaşması, iqtisadi maraqların hərbi qarşıdurmanın nəticələrindən üstün tutulması və sülhün daha geniş siyasi gündəmə çevrilməsi üçün imkanlar var. Bəlkə də qarşıdakı illərdə ən böyük siyasi hadisə yeni müharibənin başlaması yox, uzun müddət davam edən müharibələrin bir-birinin ardınca sona çatması olacaq. Ukrayna müharibəsinin dayandırılması, Avropada sabitliyin bərpası, Cənubi Qafqazda sülhün möhkəmlənməsi və beynəlxalq ticarətin genişlənməsi dünyanın daha əlverişli siyasi-iqtisadi mərhələyə keçməsinə təkan verə bilər. Azərbaycanın coğrafi mövqeyi, iqtisadi imkanları, diplomatik əlaqələri və inkişaf edən infrastrukturu bu dəyişikliklərdən faydalanmaq üçün mühüm əsas yaradır.

Şençjen görüşünün əsl nəticələri qarşıdakı aylarda və illərdə görünəcək. Ancaq bir məqamı indidən qeyd etmək mümkündür: böyük dövlətlərin rəhbərlərinin bir masa ətrafında əyləşməsi, müharibə və nüvə təhlükəsi barədə danışması, beynəlxalq münasibətlərin gələcəyini müzakirə etməsi diplomatiyanın hələ də dünya siyasətində mühüm rol oynadığını göstərir. Qarşıdurmaların yerini anlaşmanın, müharibənin yerini sülhün, iqtisadi böhranların yerini əməkdaşlığın tutması üçün imkanlar mövcuddur. Bu imkanlardan düzgün istifadə edilərsə, qarşıdakı illər dünya, o cümlədən Azərbaycan üçün daha sabit, təhlükəsiz və ümidverici dövrə çevrilə bilər.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Bir afişadan başlayan tarix...

## Teatrımızın dünəni Cəfər Cabbarlı adına muzeydə yaşayır



Bakıda elə məkanlar var ki, qapısından içəri daxil olanda zamanın axışı sanki dəyişir. Burada nə aktyor səhnəyə çıxır, nə rejissor “başlayırıq!” deyə səslənir, nə də tamaşaçı zalda öz yerini axtarır. Amma bir vaxtlar minlərlə insanı heyrətləndirən tamaşaların izi hər addımda qarşımıza çıxır. Köhnə afişalar, saralmış fotoşəkillər, əlyazmalar, aktyorların şəxsi əşyaları... Bunların hər biri Azərbaycan teatrının bir parçasını danışır.

Muzeyin zallarını gəzdikcə, eksponatlarla yaxından tanış olduqca insan özünü sanki keçmişin teatr səhnələrində hiss edir. Hər bir əşya, hər bir fotoşəkil illərin o tayından gələn bir xatirəni canlandırır. Bu dəfə həmin tarixi məkanın qapısından içəri daxil olaraq Azərbaycan teatrının yaddaşında qorunan izləri yaxından izlədik. Söhbət 1934-cü ildə dövlət statusu alan, bu gün Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi kimi tanınan mədəniyyət ocağından gedir. Bu gün - noyabrın 24-ü sözügedən muzeyin yaradılmasından 92 il ötür. Onun tarixçəsi isə rəsmi yaradılma tarixindən xeyli əvvəl başlayır.

### Hər şey bir təşəbbüslə başladı

Hər şey bir nəfərin narahatlığı ilə başladı. Azərbaycan teatrının keçmişi necə qorunacaq? Səhnədə yaranan, tamaşa bitdikdən sonra pərdə arxasında qalan sənət nümunələri gələcək nəsillərə necə çatdırılacaq? Bu sualların arxasında görkəmli teatr xadimi Ağakərim Şərifov dayanırdı. O, hələ 1920-ci ildən teatr tariximizə aid materialları toplamağa başlamışdı. Teatrın yalnız tamaşadan ibarət olmadığını, onun arxasında böyük bir yaradıcılıq və yaddaş dayandığını yaxşı anlayırdı.

Muzey ideyasının formalaşmasında Azərbaycanın tanınmış ziyalıları və sənət adamları da iştirak edirdilər. Cəfər Cabbarlı, Əziz Şərif, Əzim Əzimzadə, Sidqi Ruhulla və digər sənət xadimlərinin dəstəyi bu təşəbbüsün gerçəkləşməsində mühüm rol oynadı. Nəhayət, 1927-ci ildə keçmiş Tağıyev Teatrının binasında yerləşən Dram Teatrının foyesində teatr tariximizə həsr olunmuş ilk sərgi açıldı. Bu sərgi gələcək muzeyin başlanğıcı idi. Onun əsasını Sidqi Ruhullanın şəxsi arxivindən olan materiallar təşkil edirdi. Beləliklə, gələcəkdə böyük bir kolleksiyaya çevriləcək yaddaş xəzinəsinin ilk səhifəsi yazıldı.

1928-ci ildən 1934-cü ilə qədər muzey Azərbaycan Dövlət Muzeyinin teatr şöbəsi kimi fəaliyyət göstərdi. 1934-cü il noyabrın 24-də isə müstəqil dövlət muzeyi kimi təntənəli açılışı keçirildi. Açılış mərasimində Bülbül, Şövkət Məmmədova, Hüseynqulu Sarabski, Aleksandr Tuqanov, Ülvi Rəcəb, İsmayıl Hidayətzadə kimi tanınmış sənətkarların iştirakı bu hadisənin teatr ictimaiyyəti üçün nə qədər əlamətdar olduğunu göstərirdi.

### Muzeyin çətin sınaqları: bağlanan qapılar, qorunan xatirələr

Muzeyin yolu həmişə hamar olmayıb. Onun tarixində elə dövrlər var ki, bu gün qorunan eksponatların özünün də taleyi sual altında olub. 1937-1938-ci illərin repressiyaları Azərbaycan mədəniyyətinə, xüsusilə, milli teatrın nümayəndələrinə ağır zərbə vurdu. Sənət adamlarının bir qismi təqib olundu, bəziləri həbs edildi, bəziləri isə həyatını itirdi. Belə bir zamanda muzeydə çalışan elmi işçi Afərin Məmmədbəyovanın fədakarlığı xüsusi qeyd edilməlidir. O, repressiyaya məruz qalan sənətkarların muzeydə saxlanılan şəxsi əşyalarını və sənədlərini gizlədərək qoruyub. Əgər həmin vaxt bu addım atılmasaydı, bu gün teatr tariximizin bir sıra qiymətli səhifələri bəlkə də əlimizdə olmayacaqdı.

Muzeyin növbəti ağır sınağı isə 1963-cü ildə yaşandı. Azərbaycan Dövlət Teatr Muzeyi ləğv edilərək Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Teatr və dramaturgiya şöbəsinə çevrildi. Başqa sözlə, müstəqil muzey statusunu itirdi.

Lakin bu vəziyyət uzun sürmədi. 1968-ci ildə teatr muzeyinin yenidən təşkili haqqında qərar qəbul edildi. Bununla belə, muzeyə ayrılan məkan məhdud idi. Nizami adına Ədəbiyyat Muzeyinin binasının dördüncü mərtəbəsindəki otaqlar əsasən fond materiallarının və əməkdaşların yerləşdirilməsi üçün istifadə olunurdu.

Muzeyin tarixində yeni mərhələ 1991-ci ildə başladı. Keçmiş Lenin Mərkəzi Muzeyinin Bakı filialının binasında Muzey Mərkəzi yaradıldıqdan sonra Teatr Muzeyi də burada yerləşdirildi. Bu köçün muzeyin yalnız saxlanılan kolleksiyalarını deyil, ekspozisiya imkanlarını da genişləndirmək üçün yeni şərait yaratdı.



### Bir afişanın danışa biləcəyi tarix

Bu gün muzeyin ekspozisiyasına nəzər salarkən onun niyə bu qədər qiymətli olduğunu anlamaq çətin deyil. Təsəvvür edin: qarşınızda 1873-cü ildə Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” komediyası əsasında səhnələşdirilmiş tamaşanın afişası dayanır. Bu, Azərbaycan peşəkar teatrının başlanğıcını xatırladan sənəddir. Bir qədər irəlidə 1888-ci ildə ilk teatr truppasına aid fotoşəkil, başqa bir guşədə isə 1908-ci ildə Şərqdə ilk opera olan “Leyli və Məcnun”un premyera-proqramı nümayiş olunur.

Bunlar sadəcə kağız parçaları deyil. Hər biri öz dövrünün tamaşaçısını, sənətkarını, səhnə zövqünü və mədəni mühitini göz önündə canlandırır. Muzeyin diqqətçəkən eksponatlarından biri də 1926-cı ildə Şərq üslubunda səhnələşdirilmiş “Hamlet” tamaşasının kinolentidir. Bu lentə baxmaq, əslində, bir əsrə yaxın zaman əvvəlki teatr səhnəsinə açılan pəncərədən boylanmaq deməkdir.

Burada Cəfər Cabbarlı, Sidqi Ruhulla, Hüseynqulu Sarabski, Mirzəğa Əliyev, Ələsgər Ələkbərov, Hökumə Qurbanova, Barat Şəkinskaya və başqa sənətkarların şəxsi arxivləri qorunur. Onların məktubları, qeydləri, rol dəftərləri, fotoşəkilləri və xatirə əşyaları sənətkarların yalnız səhnə fəaliyyətini deyil, insani dünyasını da tanımağa imkan verir.




### 140 mindən çox eksponat - qorunan milli yaddaş

Rəqəmlər də muzeyin miqyasını aydın göstərir. Hazırda onun əsas fondunda 140 mindən çox eksponat mühafizə olunur. Bu kolleksiya arxiv-memuar, foto-neqativ, eskiz-maket və fonoteka istiqamətlərini əhatə edir.

Burada:

Müxtəlif illərdə səhnələşdirilmiş tamaşaların afişa və proqramları;

Aktyorların şəxsi arxivləri, məktubları və əlyazmaları;

Rejissorların qeydləri və aktyorların rol dəftərləri;

Səhnə geyimlərinin və dekorasiyaların eskizləri;

Teatr tamaşalarına aid fotoşəkillər və neqativlər;

Tarixi tamaşalarda istifadə olunmuş geyimlər, rekvizitlər və xatirə əşyaları qorunur.

Bu kolleksiyanın ən mühüm xüsusiyyətlərindən biri materialların böyük əksəriyyətinin orijinal olmasıdır. Yəni ziyarətçi sadəcə tarixi hadisə haqqında məlumat almır, həmin hadisənin özündən qalmış əşyalarla üz-üzə dayanır.

### Muzeyin bugünkü fəaliyyəti

2026-cı ildə - yaradılmasından 92 il keçən bu mədəniyyət ocağının bugünkü fəaliyyəti necədir?

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi hazırda Bakı şəhərində, Neftçilər prospekti 49 ünvanında yerləşən Muzey Mərkəzində fəaliyyət göstərir. Muzeyin ekspozisiyası yeddi zaldan ibarətdir və Azərbaycan teatrının inkişaf tarixini xronoloji ardıcıllıqla təqdim edir. Ziyarətçilər burada 1873-cü ildən başlayaraq milli peşəkar teatrın yaranması, formalaşması, inkişafı və müxtəlif teatr kollektivlərinin fəaliyyəti ilə tanış ola bilir.

Lakin muzeyin işi yalnız zallardakı eksponatları nümayiş etdirməklə bitmir. Burada elmi-praktik konfranslar, yubiley tədbirləri, xatirə gecələri, mühazirələr, ustad dərsləri və maarifləndirici görüşlər təşkil olunur. Uşaq və gənclərin teatr sənətinə marağının artırılması da fəaliyyət istiqamətlərindəndir.

Muzey müasir teatr tarixinin də arxivini yaradır. Teatrlarda cari repertuar üzrə oynanılan tamaşaların proqramları, afişaları, foto və video materialları toplanaraq gələcək nəsillər üçün qorunur. Bu, olduqca vacib məqamdır. Çünki bu gün səhnəyə qoyulan tamaşa sabah artıq teatr tarixinin bir hissəsinə çevriləcək.

### Pərdə bağlanmır...

Teatr sənətinin maraqlı bir xüsusiyyəti var: tamaşa bitir, aktyor səhnədən gedir, dekorasiyalar sökülür, işıqlar sönür. Bir müddət sonra həmin tamaşanın özü də yaddaşlarda solmağa başlayır. Amma muzey bu unudulmanın qarşısını alır.

Burada bir vaxtlar səhnədə yaşanmış obrazlar fotoşəkillərdə, aktyorların səsi lent yazılarında, rejissorların düşüncələri qeydlərdə, tamaşaların ruhu isə geyim və dekorasiya eskizlərində yaşayır. 1934-cü ildə Ağakərim Şərifovun bir təşəbbüslə başladığı bu yolun bu gün 140 mindən çox eksponatlıq böyük bir mədəni irsə çevrilməsi təsadüfi deyil. Bu, illərlə çalışan muzey əməkdaşlarının, sənətkarların, kolleksiya toplayanların və teatr tarixini yaşatmaq istəyən insanların əməyinin nəticəsidir.

Bəlkə də bu muzeyin ən böyük missiyası elə budur: gələcək nəsillərə yalnız hansı tamaşaların oynanıldığını deyil, Azərbaycan teatrının hansı zəhmət, istedad və fədakarlıq hesabına yarandığını göstərmək. Çünki səhnədə pərdə nə qədər tez-tez bağlansa da, sənətin yaddaşı heç vaxt bağlanmamalıdır...

***Yeganə BAYRAMOVA***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4336**
**Sifariş: 1551**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova